KHAZAR REVIEW

№ 382 Mart 2019

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ

ISSN 2218-2772

khazar-review.khazar.org


Əziz qadınlar sizi
8 mart Beynəlxalq
qadınlar günü müna-
sibətilə təbrik edirik









# İÇİNDƏKİLƏR


Nizami layihəsinin 8-ci görüşü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4

Universitet xəbərləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

*Lamiyə Pənahova.* Maryam Adli: "Xəzər Universitetində magistr təhsilimi bitirmək üzrə olsam da, vidalaşmaq fikrim yoxdur ("Xəzər"in əcnəbi tələbəsi ilə müsahibə) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7

İqtisadiyyat və menecment fakültəsi və Milli Mühasiblər Forumunun seminarı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8

Elmi Şuranın növbəti iclası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 14

Professor Hamlet İsaxanlı 20-ci əsrin "Polymath"-ları sırasında . . . . . . . . . . . . 18

Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş tədbir . . . . . . . . . . . . . . . . . 22

Professor Hamlet İsaxanlının doğum günü münasibətilə tədbir keçirildi . . . 26

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun xəbərləri . . . . . . . . . . . 32

İqtisadiyyat və menecment fakültəsinin tələbələri Xətai Sənət Mərkəzində . 37

"Çoxbilginlik" mövzusunda seminar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 38

"Elm və Sənət Məclisi"nin 69-cu məşğələsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40

Waqas Ahmedin kitabının təqdimatı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 42

"Elm və Sənət Məclisi"nin 70-ci məşğələsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 44

Çex Respublikasının Azərbaycandakı səfirinin müavini Xəzər Universitetində mühazirə oxudu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48

8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bayram şənliyi . . . . . . . . . . 50

Professor Hamlet İsaxanlının Türkiyəyə işgüzar səfəri . . . . . . . . . . . . . . . . . 52

*İsaxan İsaxanlı.* Biz gəldi-gedərik, sən yaşa, "Dünya"! . . . . . . . . . . . . . . . . . . 68

Direktorlar və Qəyyumlar Şurasının illik toplantısı . . . . . . . . . . . . . . . . . . . . 72

"Xəzər"də Novruz şənliyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 74



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Zemire Qurbanova

Kompüter tərtibatçısı:
Gürəl Əkbərova

Foto:
Multimedia Mərkəzi



Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org



Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbeyli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Zemira Gurbanova

Computer graphics:
Gural Akbarova
Photo:
Multimedia Centre




# NİZAMİ LAYİHƏSİNİN 8-Cİ GÖRÜŞÜ

# 8th MEETING OF NIZAMI PROJECT

Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru, rektor vəzifəsini icra edən dosent İradə Xəlilova və İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva NIZAMI ERASMUS+ layihəsi çərçivəsində fevralın 18-22-də Fransanın Montpellier Universitetində oldular.

NİZAMİ layihəsinin 8-ci iclası Milli İdarəetmə Portalının inkişafına həsr edilmişdi. Layihənin bütün tərəfdaşları layihənin nailiyyətlərini müzakirə etmək və layihənin daha səmərəli başa çatdırılması üçün bir araya gəlmişdilər.

Tədbirin ilk günündə tərəfdaşlar layihənin genişlənmə və maliyyə məsələlərini müzakirə etdilər, ikinci gün isə Milli İdarəetmə Portalının inkişafına dair təlim keçirdilər. Təlim zamanı Montpellier Universitetinin nümayəndələri Milli İdarəetmə Portalının inkişafı ilə əlaqədar təqdimat etdilər və sual-cavab sessiyası keçirildi. Sonra Azərbaycan Milli Elmlər Akademiyasının komandası Azərbaycan Milli İdarəetmə Portalının versiyasını təqdim etdi.

Tədbirin üçüncü günü hər tərəfdaş fəaliyyəti haqqında hesabat verdi. Xəzər Universiteti adından Raziyə İsayeva layihənin nəticəsi olaraq universitetdə həyata keçirilmiş dəyişikliklər və təkmilləşdirmə işləri barədə məruzə etdi.

Dr. İradə Xəlilova Montpellier Universitetinin Beynəlxalq əlaqələr şöbəsində görüş keçirdi və gələcək əməkdaşlıq perspektivləri müzakirə olundu.

Tədbir hər ortaqla fərdi maliyyə məsləhətləşmələri ilə yekunlaşdı.

On February 18-22, acting rector of Khazar University, associate professor Irada Khalilova and director of development Raziya Isayeva visited University of Montpellier, France within the NIZAMI ERASMUS + project. 8th meeting of NIZAMI project was devoted to the development of National Management Portal. All Azerbaijani partners of the project came together to discuss the achievements of the project and plan smoother completion of the project.

On the first day of the meeting, partners discussed dissemination and financial issues of the project, whereas during the second day, the partners were trained in developing the national management portal. During the training, representatives of the University of Montpellier presented National Management Portal and its possibilities which followed by the questions and answer session. Following this, the team of the Azerbaijan National Academy of Science presented the version of National Management Portal for Azerbaijan.

The third day of the meeting involved an activity report by each partner. On behalf of Khazar University Raziya Isayeva presented report on each Workpackage and changes and improvements at Khazar University as a result of the project.

At the same time, Dr. Irada Khalilova held a meeting in International Relations Office of the University of Montpellier to discuss the perspectives of current and future collaboration.

The meeting ended with individual financial consultation with each partner.



# OMBUDSMAN MƏRKƏZİNİN TƏLİMİ

# WORKSHOP OF THE OMBUDSMAN OFFICE

Fevralın 20-21-də Xəzər Universitetinin Ombudsman mərkəzinin fəaliyyəti haqqında tələbələri marifləndirmək məqsədilə universitetin əməkdaşları - Psixologiya departamentinin koordinatoru və Psixologiya mərkəzinin direktoru Məlak Kərimova, Təlim və tədris mərkəzinin direktoru Ülkər Bayramova, İngilis dili və ədəbiyyatı departamentinin proqram koordinatoru Milana Abbasova, Qəbul və tələbə şöbəsinin müdiri və Tələbələr üzrə ombudsman Lamiyə Namazova və Karyera mərkəzinin meneceri Səbinə Allahverənova 1-ci və 2-ci kurs tələbələri üçün təlim keçirdilər. Təlimdə iştirak edən əməkdaşlar AESOP Erasmus+ layihəsinin üzvləri olduqları üçün tələbələrə layihə ilə bağlı ümumi məlumat verdilər.

Görüş zamanı tələbələrin sualları Xəzər Universitetinin əməkdaşları tərəfindən cavablandırıldı.

On February 20 and 21, for the purpose of enlightening students about the Ombudsman Office at Khazar University, first and second-year students were involved in a workshop which was conducted by Malak Karimova, Coordinator at the Department of Psychology and Director of Psychology Center; Ulkar Bayramova, Director of Training Center; Milana Abbasova, Program Coordinator at the Department of English Language and Literature; Lamiya Nazarova, Head of the Division for Admission and Student Affairs and Ombudsman for Students; and Sabina Allahveranova, Manager at Career Center. The University associates informed the students about AESOP Erasmus+ project since they are team members of the project.

During the workshop, the associates answered the students` questions.





## TƏBRİZLİ GƏNC YAZAR XƏZƏR UNİVERSİTETİNDƏ

## YOUNG WRITER FROM TABRIZ VISITS KHAZAR UNIVERSITY

Fevralın 22-də təbrizli gənc yazar Ümid Nəccarinin Xəzər Universitetinin tələbələri ilə görüşü oldu. "Yaradıcı yazı" fənninin növbəti dərsində iştirak edən qonaq əvvəlcə tələbələrdən Suqra Əliyeva, Sadiq Mirzəyev, Nərmin Ələkbərova və Günay Nuriyevanın kiçik hekayə və esselərini dinləmiş, gənclərin ilk qələm təcrübələri haqqında mülahizələrini söyləyərək, onların öz duyğu-düşüncələrini yığcam və obrazlı dildə ifadə etmələrini yüksək qiymətləndirmişdir. Sonra öz qələm təcrübələrindən danışan Ü.Nəccari yeni şeirlərini oxumuşdur.

Fənn müəllimi Qardaşxan Əzizxanlı Türkiyədə təhsil alan Umud adlı azərbaycanlı tələbənin də bugünkü görüşə qatıldığını deyərək, "Ümidlərin birgəliyinə" işarə edərək, bunun rəmzi məna daşıdığını bildirmişdir. Görüşün sonunda Q. Əzizxanlı iki aypara fiqurunu birləşdirib, günəşə bənzədərək, onu Bütöv Azərbaycanın rəmzi kimi gənc yazara təqdim etmişdir.

Görüş haqqında ətraflı məlumatla bu linklər vasitəsilə tanış olmaq olar:

*http://www.adalet.az/w164968/Təbrizli_gənc_yazar_Xəzər_Universitetində/#.XHMEkqIzbIU*

*http://manevr.az/elm-tehsil/46150-tbrizli-gnc-yazar-xzr-universitetinin-qonaq-olub.html?fbclid=IwAR3wSu4-jyVc8Wqvnr06X-1Wcrw9HUbQXh-Yl7jrUT-tj1QfUW__QpW4Ew8*

On 22nd of February, Umid Najjar, young writer from Tabriz met with Khazar University's students. Participating in the lesson of "Creative Writing", the poet listened to small stories and essays by Sugra Aliyeva, Sadig Mirzaliyev, Narmin Alakbarov and Gunay Nuriyeva, and shared his opinion about the first experience of theirs, appreciating their skills to express their feelings and thoughts in a short and figurative way. Then the poet shared his own experience and recited his new poems.

Gardashkan Azizkhanli mentioning the presence of Umud, an Azeri student studying in Turkey, at the meeting, emphasized the symbolic meaning of the meeting pointing to "unity of hopes". At the end, Gardashkan Azizkhanli united the two crescent figures and presented it to the young writer as a symbol of united Azerbaijan.

Further information is available through the follwing links:

*http://www.adalet.az/w164968/Təbrizli_gənc_yazar_Xəzər_Universitetində/#.XHMEkqIzbIU*

*http://manevr.az/elm-tehsil/46150-tbrizli-gnc-yazar-xzr-universitetinin-qonaq-olub.html?fbclid=IwAR3wSu4-jyVc8Wqvnr06X-1Wcrw9HUbQXh-Yl7jrUT-tj1QfUW__QpW4Ew8*

## PROFESSOR HAMLET İSAXANLI ARB TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERDİ

Fevralın 23-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ARB televiziya kanalına müsahibə vermişdir. Müsahibə zamanı o, Azərbaycan universitetləri tərəfindən verilən diplomların xaricdə tanınması, bu tanınmanın hansı əlamətlərə görə müəyyən edilməsi və yerli universitetlərlə xarici universitetlər arasındakı fərqlər və s. məsələlər barədə danışmışdır.

## PROFESSOR HAMLET ISAKHANLI GIVES INTERVIEW TO ARB TELEVISION CHANNEL

On February 23, Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave an interview to ARB television channel. During the interview, he talked about the issues related to recognition of the diplomas abroad given by Azerbaijani universities, determination of the signs of the recognition, differences between local and foreign universities and so on.

*"Xəzər və dünya"*

## MARYAM ADLİ: "XƏZƏR UNİVERSİTETİNDƏ MAGİSTR TƏHSİLİMİ BİTİRMƏK ÜZRƏ OLSAM DA, VİDALAŞMAQ FİKRİM YOXDUR"

*"Khazar and World"*

## MARYAM ADLİ: I AM FINISHING MY MBA PROGRAM AT KHAZAR UNİVERSİTY BUT NOT SAYING GOODBYE YET



*Xəzər Universitetinin biznesin idarə olunması üzrə magistr (MBA) tələbəsi, Əfqanıstandan olan Maryam Adli Xəzər Universiteti ilə bağlı təcrübələrini bölüşdü:*

"Mən təhsilimi xarici ölkədə magistr səviyyəsində davam etdirmək üçün universitet axtarışında idim və xoşbəxtlikdən Xəzər Universitetinin vebsaytı qarşıma çıxdı. Vebsayt istifadə üçün kifayət qədər rahatdır və özündə bütün proqramları, təqaüd imkanlarını və müraciət qaydalarını əks etdirmişdi. Əfqanıstanda da təhsilim biznesin idarə edilməsi olduğu üçün magistr təhsilimi Xəzər Universitetində məhz biznesin idarə edilməsi üzrə davam etdirmək qərarına gəldim. Öz biznesimi qurmaq və idarə etmək həmişə arzum olub və düşünürəm ki, Xəzər Universitetində magistr təhsili məni öz xəyallarıma bir az da yaxınlaşdıracaq.

Xəzər Universitetinin MBA proqramı mütəxəssislərə bilik və təcrübələrini möhkəmləndirmək və inkişaf etdirmək üçün gözəl şərait yaradır. Burada təhsilimə başlamazdan əvvəl mən Əfqanıstanda bir qeyri-hökumət təşkilatında insan resursları üzrə menecer kimi işləyirdim və onun ardınca Xəzər Universitetində aldığım magistr təhsili mənə biznesin və müəssisələrin idarə olunması, şəxsi bizneslərdə insan resurslarının idarə edilməsi kimi sahələrdə çox dəyərli biliklər qazandırdı. Əminəm ki, bu biliklər gələcək professional karyeramda mənə çox yardımçı olacaq".

Artıq Xəzər Universitetində magistr təhsilini tamamlamaq üzrə olan Maryam deyir: "Magistr kimi, Xəzər Universitetində axırıncı ilim olsa da, doktorantura təhsilimi də burada davam etdirmək istəyirəm. Buna görə də, inanıram ki, hələ "Xəzər"lə belə tezliklə sağollaşmayacağam."

*Maryam Adli ilə aparılan müsahibə universitetin Beynəlxalq əlaqələr şöbəsinin təşkil etdiyi "Xəzər və Dünya" layihəsi çərçivəsində baş tutmuşdur. Layihə çərçivəsində Xəzər Universitetinin əcnəbi tələbələrindən silsilə müsahibələr götürülür.*

Müsahibəni hazırladı: **Lamiyə Pənahova**
*Beynəlxalq Əlaqələr Ofisinin koordinatoru.*

*MBA candidate, Maryam Adli from Afghanistan, shares her experience at Khazar University:*

"I was searching for a good university to continue my education at a master's level and luckily I found Khazar University's website. The website was very helpful and user-friendly: it had detailed information about offered programs and schoalrship opportunitites and clear isntructions on applying. Studying MBA has been my goal since I completed my bachelor degree in Afghanistan. I always wanted to establish and manage my own business, and think that my MBA degree will take me closer to realizing my dream.

Khazar University's MBA program offers a good opportunity for professionals to strengthen their knowledge and experience through a well-organized study process. Before starting my studies here I was working as an HR manager in a non-government organization in Afghanistan, and my MBA studies provide me a great insight into the management of businesses and enterprises as well as managing human resources in private businesses which is essential for my future professional experience."

Maryam who is about to complete her MBA program at Khazar University says: "This is my last year at Khazar University, but I am planning to do my PhD here as well, so I hope I am not going to say goodbye soon."

*Interview with Maryam Adli was conducted within the project carried out by the International Affairs Office entitled "World and Khazar." The project includes a series of interviews with members of international community of Khazar University.*

Interview prepared by **Lamiya Panahova**
*Coordinator at International Affairs office*

# İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİ VƏ MİLLİ MÜHASİBLƏR FORUMUNUN SEMİNARI

# SEMINAR OF THE SCHOOL OF ECONOMICS AND MANAGEMENT AND NATIONAL ACCOUNTANTS FORUM

Fevralın 24-də Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsi və Milli Mühasiblər Forumunun növbəti seminarı keçirildi. Bu dəfəki seminarda da mühasibat uçotu sahəsinin tanınmış mütəxəssisləri çıxış etdilər.

Seminarı giriş sözü ilə açan Milli Mühasiblər Forumunun Təşkilat Komitəsinin sədri Dr. Ruslan Atakişiyev Forumun fəaliyyət prinsipləri və tədbirin keçirilməsi məqsədi barədə iştirakçıları məlumatlandırdı. Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov seminar iştirakçılarını salamlayaraq, Xəzər Universitetinin elm və təhsil sahələrindəki fəaliyyətləri və mühasibat uçotunun tədrisi haqqında iştirakçılara məlumat verdi.

Həmçinin, seminarda Bakı Hesabat Mərkəzinin direktoru Mehdi Babayev "Sənədsiz malların (sənəd olmadan alınan və rəsmi uçotdan kənarda qalan əsas vəsaitlərin, xammal və materialların, malların və digər maddi əşyaların) daxil edilməsinin sənədləşdirilməsi, qiymətləndirilməsi, rəsmi uçota alınması, silinməsi üsulları və problemlərin həlli", İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezidenti Radil Fətullayev "Mənfəət vergisi və gəlir vergisi üzrə cari (rüblük) vergi ödəmələrinin hesablanması və cari vergi məbləği barədə arayışın tərtib və təqdim edilməsi, problemlərin həlli", AccessBankın bank mütəxəssisləri isə idxal-ixrac və digər valyuta əməliyyatları üzrə bank hesablaşmalarında yaranan çətinliklər və onların aradan qaldırılması yolları, idxal-ixrac əməliyyatları, müqavilələrin hazırlanması, avans ödənişləri, vasitəçilik, 3-cü şəxsin xeyrinə ödənişlər, xaricdən cəlb edilmiş kreditlər və digər borc öhdəlikləri ilə bağlı köçürmələr və s.ilə bağlı yaranan problemlər, xarici valyuta əməliyyatlarının dövlət tənzimlənməsi mövzularında çıxış etdilər.

Sonra iştirakçıları maraqlandıran suallar cavablandırıldı və mövzular ətrafında müzakirələr aparıldı.

Seminarda bir sıra tanınmış müəssisələrin baş mühasibləri, mühasibləri və maliyyə menecerləri, universitet müəllimləri və tələbələr iştirak edirdilər.

On February 24, the subsequent seminar coorganized by the School of Economics and Management of Khazar University and National Accountants Forum took place. Prominent experts in the field of accountancy delivered talks in this seminar same as before.

Dr. Ruslan Atakishiyev, Chairman of the Organizing Committee, in his opening statement provided the participants with information on operational principle of the Forum and the aim of organizing the event. Dr.Jeyhun Mammadov, Dean of the School of Economics and Management, greeted seminar participants and gave information on activities of the Khazar University in the field of science and education and accountancy teaching.

Within the framework of the seminar the following talks were delivered by the following experts: "Methods of documentation of incorporation, evaluation, official registration, write-off of unlicensed goods (capital assets, feedstock and materials, goods and other tangible items purchased without documentation and not registered officially) and problem resolution" by Mehdi Babayev, Director of Baku Report Center; "Calculation of current (quarterly) profit tax and income tax payments, as well as drafting and filing notes on current tax amount, problem resolution" by Radil Fatullayev, Vice-president of the Center for Economic Research and Training; Banking experts from the AccessBank delivered speech on topics of difficulties arising from import-export and other foreign currency operations and ways of resolution, issues related to import-export operations, drafting contracts, advance payments, intermediary services, payments for the benefit of third parties, transactions in connection with foreign loans and other debt obligations, state regulation of foreign currency operations.

Afterwards, participants had a chance to get answers to their questions and topics were extensively discussed.

This seminar was attended by a number of chief accountants, accountants and finance managers from the renowned organizations, university teachers and students.






AccessBank
MİLLİ MÜHASİBLƏR FORUMU
XƏZƏR UNİVERSİTETİ
1991
BAKI
KHAZAR UNIVERSITY
Azərbaycan Mühasiblərinin Koordinasiya Platforması


AccessBank
Sizin Yerli
KHAZAR UNIVERSITY
Azərbaycan Mühasiblərinin Koordinasiya Platforması


AccessBank
Sizin Yerli Avropa Bankınız







# PROFESSOR HAMLET İSAXANLI "AZERSUN HOLDİNG"-İN PREZİDENTİ İLƏ GÖRÜŞDÜ

# PROFESSOR HAMLET ISAKHANLI MEETS PRESIDENT OF "AZERSUN HOLDING"

Fevralın 25-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Azersun Holding"- də şirkətin prezidenti Abdolbari Goozalla görüşdü. H.İsaxanlı Abdolbari Goozala Xəzər Universiteti, Avrasiya Akademiyası və digər qurumlar haqqında geniş məlumat verdi, son zamanlar çapdan çıxmış kitablarını ona təqdim etdi. Görüş zamanı gələcəkdə bir sıra əməkdaşlıq proqramlarının həyata keçirilməsi qərara alındı.

Görüşdə universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdi.

On February 25, Prof. Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met with Abdolbari Goozal, President of "Azersun Holding". H.Isakhanli gave detailed information about Khazar University, Eurasian Academy and other institutions and presented Abdolbari Goozal with his newly published books. During the meeting, it was decided to carry out several collaboration programs.

Alovsat Amirbayli, Director for Public Relations and Media, also joined the meeting.

# BEYNƏLXALQ KONFRANSIN MATERİALLARINDAN İBARƏT TOPLU FRANSIZ DİLİNDƏ ÇAP OLUNUB

2017-ci il noyabrın 7-9-da "labex TransferS" və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə Xəzər Universitetində keçirilmiş "Qafqazda görüşlər və qarşılıqlı təsirlər. Mədəniyyətlərarası əlaqələrin uzunmüddətli tarixi" adlı beynəlxalq konfransın materiallarından ibarət irihəcmli toplu – "A long-term history of Cross-cultural Transfers in the Caucasus" 10 fevral 2019-cu ildə ingilis dilində Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxdıqdan sonra, artıq eyni kitab Fransada da fransız dilində tərəfdaş qrup tərəfindən Demopolis nəşriyyatında çap edilib. Kitab fransız dilində "La montagne des langues et de peuples. Imbrications et transferts dans l'espace du Caucase" adlanır.




Redaktorlarının Hamlet İsaxanlı (Xəzər Universiteti), Şahin Mustafayev (AMEA) və Michel Espagne (Elmi Araşdırmalar üzrə Milli Mərkəz, Paris) olduğu topluda Azərbaycan, Fransa, Gürcüstan, Rusiya, Dağıstan və İnquşetiyadan olan 20 görkəmli alim, aparıcı mütəxəssis və tədqiqatçıların məruzələrinin tezisləri yer alınışdır.

# BOOK ENCOMPASSING PROCEEDINGS OF INTERNATIONAL CONFERENCE PUBLISHED IN FRENCH

After the publication of the voluminous book entitled "A long-term history of Cross-cultural Transfers in the Caucasus" at Khazar University Press on 10 February 2019, which was compiled of the proceedings of the international conference called "Meetings and Interactions in the Caucasus. A long-term history of intercultural relations" held in Khazar University and co-organized by "labex TransferS" and Khazar University; the same book has recently been published in France in the French language by the counterpart group at Éditions Demopolis. The book is entitled as "La montagne des langues et de peuples.

Imbrications et transferts dans l'espace du Caucase" in French.

Directed by Hamlet Isakhanli (Khazar University), Shahin Mustafayev (ANAS) and Michel Espagne (National Center for Scientific Research in Paris), the book encompasses the articles of 20 prominent scientists, leading experts and researchers from Azerbaijan, France, Georgia, Russia, Dagestan and Ingushetia.





## "CİNAYƏTKARLIQ VƏ PSİXOLOJİ AMİLLƏR" MÖVZUSUNDA TƏLİM

## "CRIME AND PSYCHOLOGICAL FACTORS" WORKSHOP HELD

Fevralın 25-də Xəzər Universitetində Azərbaycan Elm Assosiasiyasının həmsədri İnqilab Şahbazov tərəfindən "Cinayətkarlıq və psixoloji amillər" mövzusunda təlim keçirildi. Təlimə Xəzər Universitetinin psixologiya ixtisasının tələbələri ilə yanaşı, psixoloq kimi fəaliyyət göstərən şəxslər də qatılmışdılar. Təlimi Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə təşkil etmişdi.

Təlim boyu İnqillab Şahbazov kriminalogiyada ən çox rast gəlinən psixoloji amillərdən, xarici ölkələrdəki cəzaçəkmə müəssisələrindəki psixoloji yardım layihələrindən və bunların Azərbaycanda tətbiq edilməsi yollarından danışdı.

Təlim zamanı tələbələr müzakirələrdə fəal iştirak edərək, bu sahədə aparılan eksperimentlərdən danışdılar.

Qeyd edək ki, İ.Şahbazov İngiltərənin Şeffild Universitetində sosiologiya üzrə bakalavr, London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində ədliyyə sistemi üzrə magistr təhsili almışdır. İnqilab Şahbazov "Sosioloji nəzəriyyələr" kitabının da müəllifidir.

On February 25, with the coordination of Nilufar Alizadeh, Instructor at the Department of Psychology, "Crime and Psychological Factors" workshop was conducted by Ingilab Shahbazov, Co-chair of the Azerbaijan Science Association. The workshop was attended by students majoring in Psychology as well as psychologists.

Ingilab Shahbazov gave information about common psychological factors encountered in criminology as well as psychological aid projects implemented in penal institutions in foreign countries and remarked the possibilities of application of similar projects in Azerbaijan.

Students took an active part in the workshop citing relevant experiments in this filed.

Ingilab Shahbazov got his Bachelors' degree in Sociology at the University of Sheffield and Masters' degree in the justice system at the London School of Economics and Political Sciences. He is the author of "Sociological Theories" book.







## XOCALI SOYQIRIMINA HƏSR EDİLMİŞ TƏDBİR

Xezer Universiteti Tarix ve arxeologiya departamentinin teşkilatçılığı ile fevralın 26-da "Xocalı - esrin faciesi" adlı silsile tedbirlerden növbetisi hemin departamentin müellimi t.ü.f.d Zehra İslamovanın rehberliyi ile Mühendislik ve tebiet elmleri fakültesinin birinci kurs telebeleri ile keçirildi.

Tedbirde Xocalı soyqırımı erefesinde Quşcular, Malıbeyli, Qaradağlı faciələrine nezer yetirildi.

## EVENT DEDICATED TO THE KHOJALY GENOCIDE

On February 26, with the coordiantion of the Department of History and Archeology of Khazar University, one of the series events "Khojaly, the tragedy of the century" was held by Zahra Islamova, PhD in History and Instructor at Khazar University, for the first-course students of the School of Engineering and Natural Sciences.

At the event, Gushchular, Malibayli and Garadaghli tragedies were also remarked as massacres leading to Khojaly genocide.





## "KARYERAYA APARAN YOL" ADLI TƏLİM

Fevralın 28-de Xezer Universitetinin Karyera merkezinin teşebbüsü ile "Karyeraya aparan yol" adlı təlim keçirildi. Təlimin meruzeçisi "Nikoil" Bankın kadrlar şöbesi sedrinin müşaviri Arzu Əliyeva idi. O, telebelerle interaktiv müzakirələr apararaq, onlara 20 ildən artıq peşəkar təcrübəsindən nümunələr gətirdi. Təlim 3 hissədən ibarət idi. Birinci hisse CV-lərin hazırlanması zamanı buraxılan sehvlerle bağlı idi. Təlimin ikinci hissesinde müsahibe zamanı diqqet edilmeli meselelere toxunuldu. Üçüncü hissede ise işe qebul olunduqdan sonra qarşılaşılan maqamlar və davranış qaydaları müzakirə edildi.

Təlim zamanı, eləcə də, təlimin sonunda tələbələr tərəfindən səslendirilən suallara cavab verildi

## "THE WAY TO THE CAREER" TRAINING WAS HELD

On February 28, a training entitled "The Road to Career" was held, at the initiative of the Khazar University Career Center. The training contributor was Arzu Aliyeva, Advisor to the Chairman of Personnel Department, of the "Nikoil" Bank. Facilitiating interactive discussions with students during the training, she introduced examples from more than 20 years of professional experience. The training consisted of 3 parts. The first part was related to the mistakes made during CV preparation. The second part of the training focused on the issues to be considered during the interview. The third part dealt with the opportunities after the recruitment and rules of behavior.

During the training, as well at the end of the training, students' questions were answered.

Following the closure of the training memorable pictures were taken.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "MƏDƏNİYYƏTLƏRİN BİRLƏŞDİRİCİ GÜCÜ VƏ UNİVERSİTETLƏRİN ROLU" ADLI BEYNƏLXALQ TƏDBİRDƏ

# KHAZAR UNVERSITY EMPLOYEES ATTEND INTERNATIONAL EVENT "THE UNIFYING POWER OF CULTURES AND THE ROLE OF UNIVERSITIES"



Fevralın 27-si və 28-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədli və Tarix və arxeologiya departamentinin müəllimi siyasi elmlər üzrə fəlsəfə doktoru Hatəm Cabbarlı, Türkiyənin Kütahya şəhərində yerləşən Dumlupınar Universiteti tərəfindən təşkil edilən "Mədəniyyətlərin birləşdirici gücü və universitetlərin rolu" adlı beynəlxalq tədbirdə iştirak etdilər. Tədbirdə dünyanın üç qitəsindən 26 ölkədən 50-dən çox universitetin rektorları, prorektorları və məsul şəxsləri bir araya gələrək, unuversitetlər arasında əməkdaşlıq imkanlarını, Mövlana, Ersamus və Farabi tələbə və müəllim mübadiləsi çərçivəsində təhsilin beynəlxalq aləmlə bütünləşməsi məsələlərini müzakirə etdilər. Eyni zamanda, tədbirdə universitetlərin xalqların mədəniyyətinin birləşdirici vasitə olması vurğulandı.

Xəzər Universitetinin müəllimləri E.Səmədli və H.Cabbarlı tədbirdə iştirak edən ölkələrin nümayəndələri ilə görüşərək, əməkdaşlıq imkanlarını dəyərləndiriblər.

Görüşün əsas məqsədlərindən biri universitetlər birliyinin qurulması üçün əməkdaşlıq və niyyət protokollarının imzalanması idi.

Görüşdə, eyni zamanda, Xəzər Universiteti ilə Dumlupınar Universiteti arasında tələbə və professor-müəllim heyətinin mübadiləsi, ikili diplomların verilməsi, ortaq araşdırmaların aparılması, magistratura və doktorantura pilləsində ikinci elmi rəhbərin təyin olunması məsələləri müzakirə olunaraq, əməkdaşlıq protokolu imzalandı. Eyni zamanda, Dumlupınar Universiteti ilə Xəzər Universiteti arasında Mövlana protokolunun da imzalanması razılaşdırıldı.

Görüş haqqında əlavə məlumatı aşağıdakı linklərdən əldə etmək mümkündür:

*http://haber.dpu.edu.tr/tr/haber_oku/5c7647a0e75cf/uc-kitadan-akademisyenleri-birlestiren-calistay-dpude-basladi*

*http://haber.dpu.edu.tr/tr/haber_oku/5c77d626d96fa/dpunun-ev-sahipligindeki-uluslararasi-calistay-sona-erdi*

On February 27and 28, Assoc.Prof.Elza Samadli, Dean of the School of Humanities, Education and Social Sciences, and Hatam Jabbarli, PhD in Political Sciences and Instructor at the Department of History and Archeology, attend an international event "The Unifying Power of Cultures and the Role of Universities", organized by Dumlupınar University in Kutahya. The event was attended by more than 50 rectors, vice-rectors and officials from 26 countries from the three continents of the world. The participants discussed the issues such as Mevlana, Erasmus and Farabi student and teacher exchange programs and further collaboration. At the event, it was remarked that universities are means of unifying peoples and cultures.

E.Samadli and H.Jabbarli, Khazar University instructors, met representatives of various countries and discussed mutual collaborations.

One of the main aims of the meetings was to sign a cooperation protocol and a protocol of intent in order to establish a union of universities.

Moreover, a protocol of cooperation between Khazar University and Dumlupınar University was signed which covered student and teacher exchange, dual diplomas, joint researches, an appointment of the second supervisor for the Master's and PhD degrees. Both parties also agreed on signing Mevlana protocol.

Further information about the meeting is available through the following links:

*http://haber.dpu.edu.tr/tr/haber_oku/5c7647a0e75cf/uc-kitadan-akademisyenleri-birlestiren-calistay-dpude-basladi*

*http://haber.dpu.edu.tr/tr/haber_oku/5c77d626d96fa/dpunun-ev-sahipligindeki-uluslararasi-calistay-sona-erdi*





# ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI







## *Xəzər Universitetinin əməkdaşları mükafatlandırıldı*

Fevralın 28-də Xəzər Universitetinin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilovanın sədrliyi ilə Elmi Şuranın 2018-2019-cu dərs ili ərzində ikinci iclası keçirildi. İclası giriş sözü ilə açan sədr İradə Xəlilova Elmi Şuranın üzvlərini gündəliklə tanış etdi və şuranın yeni tərkibi haqqında məlumat üçün sözü universitetin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyevə verdi. Məhəmməd Nuriyev son dövrlər universitetdə aparılan struktur dəyişiklikləri ilə bağlı Elmi Şuranın yeni formalaşmış tərkibini şura üzvlərinin nəzərinə çatdırdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iclasda çıxış edərək, Xəzər Universitetində aparılan son struktur dəyişikliklərini zəruri edən səbəblər və universitetin strateji inkişaf istiqamətləri barədə öz mülahizələrini söylədi. O, ilk növbədə, Xəzər Universitetində çalışan hər kəsdən yüksək peşəkarlıq, fəallıq və dürüstlük kimi keyfiyyətlərin tələb olunduğunu bildirdi. Dünya təhsil sistemində Xəzər Universitetinin öz layiqli yerini tutması üçün onun daim müasirləşməyə ehtiyacının olduğunu və bu məqsədlə əməkdaşlar arasında ingilis dilini yaxşı bilən kadrlara xüsusi üstünlük veriləcəyini, eləcə də, ingilis dilində tədris olunan fənlərin sayını artırmağın zəruri olduğunu nəzərə çatdırdı. Pofessor Hamlet İsaxanlı, həmçinin, qeyd etdi ki, tələbələrlə aparılan işin keyfiyyəti yüksəldilməli və onların rəy sorğularına verdiyi cavablara diqqətlə yanaşılmalıdır.





## SUBSEQUENT MEETING OF THE SCIENTIFIC COUNCIL

# *Employees of Khazar University Awarded*







On February 28, Dr. Irada Khalilova, Acting Rector of Khazar University chaired the second meeting of the Scientific Council for the 2018-2019 academic year. In an opening statement, Dr. Irada Khalilova introduced members of the Scientific-Administrative Council with the agenda and gave word to Professor Mahammad Nuriyev, the Vice-Rector for Academic Affairs, to provide information about the new composition of the Board. Mahammad Nuriyev informed the members of the Scientific Council about new composition of the Board as the result of structural changes took place in the University during the recent period.

Professor Hamlet Isaxanli, the founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, speaking at the meeting highlighted the indespensable reasons for the recent structural changes in Khazar University and outlined his considerations on further strategic directions of the University's development. He said that, first of all, such criteria as the quality of professionalism, commitment and honesty is required from everyone working at Khazar University. He noted that the Khazar University has a need for modernization in order to maintain its worthy place in the world of education, and that for this purpose it is necessary to give special preference to the staff who are fluent in English, as well as to increase the number of subjects taught in English. Pofessor Hamlet Isaxanli also indicated that the quality of the work done with the students should be raised and their responses to the questionnaire survey should be thoroughly considered.




H.İsaxanlı çıxışının sonunda Xəzər Universitetinin əməkdaşları arasında keçirilmiş sorğuya əsasən, kollektivin daha çox rəğbət qazanmış aşağıdakı üzvlərinə xüsusi sertifikat və mükafatlar təqdim etdi. Riyaziyyat departamentinin müdiri Əli Hüseynli; İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov; Kompüter elmləri departamentinin müdiri Məhəmməd Şərifov; İqtisadiyyat və menecment departamentinin koordinatoru Bahadır Baysal, rektor vəzifəsini icra edən İradə Xəlilova; Hüquq departamentinin müdiri Cabir Xəlilov; Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimova; Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova; Təbiət elmləri və mühəndislik fakültəsinin tələbə işləri üzrə dekan müavini Vəfa Aslanova; İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva; Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədli; Kitabxana-informasiya mərkəzinin direktoru Tatyana Zaytseva; Təsərrüfat işləri üzrə menecer Məleykə Hüseynova; İnformasiya texnologiyaları şöbəsinin müdiri Fərid Musayev; Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova; Kitabxana-İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli mükafatlandırıldılar.

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev çıxış edərək, 2018-2019-cu tədris ilinin qış imtahan sessiyasının nəticələri və yaz semestri üçün qarşıda duran vəzifələr barədə geniş məlumat verdi. Elmi Şura üzvləri müzakirə olunan məsələlərlə bağlı öz fikirlərini söylədilər və müvafiq tövsiyələr bildirildi.

H. Isaxanli, at the end of his speech, presented a special certificate and awards to the following members of the staff, who were most competitive according to the results of the survey, conducted among Khazar University staff: Ali Huseynli, Head of Mathematics Department; Jeyhun Mammadov, Dean of the School of Economics and Management; Mahammad Sharifov, Head of Computer Science Department; Bahadir Baysal, Coordinator of Economics and Management Department, Irada Khalilova, Acting Rector; Jabir Khalilov, Head of the Legal Department; Valida Karimova, Vice-Dean of the Faculty of Humanities, Education and Social Sciences; Roza Arazova, Head of Department of History and Archeology; Vafa Aslanova, Vice-Dean for Student Affairs of the Faculty of Natural Sciences and Engineering; Raziye Isayeva, Director of the Development Center; Jabir Mammadli, Coordinator of Division of Graduate Studies and Research; Tatyana Zaytseva, Director of the Library Information Center; Maleyka Huseynova Manager of the Maintenance Office; Farid Musayev, Head of Information Technology Office; Lamiya Namazova, Head of Admission and Information Office; Aytaj Misgerli, Deputy Director of Library Information Center.

Delivering talk with regards to the second issue on the agenda, Professor Mahammad Nuriyev, the Vice-Rector for Academic Affairs, provided extensive information on the results of winter examinations for the 2018-2019 academic year and the challenges ahead for the summer semester. Members of the Scientific Council shared their views on the issues discussed.



















## PROFESSOR HAMLET İSAXANLI 20-Cİ ƏSRİN "POLYMATH"-LARI SIRASINDA

***Stack Exchange*** saytı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının adını da 20-ci əsrdə dünyanın məşhur "Çoxbilgin"ləri ("*Polymath*") sırasına daxil etmişdir.

Qeyd edək ki, ***Stack Exchange*** elm tarixi və riyaziyyat sahəsində çox aktiv müzakirələrin aparıldığı bir sual-cavab saytıdır.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

***https://hsm.stackexchange.com/questions/2404/what-are-the-most-famous-polymaths-of-the-20th-century***

Oxucularımız üçün maraqlı olacağını nəzərə alaraq, siyahını ingiliscə dərc edirik.

## PROFESSOR HAMLET ISAKHANLI IS AMONG THE 20th CENTURY POLYMATHS

The *Stack Exchange* website ranked Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, among the world's most prominent "Polymaths" of the 20th century.

It should be noted that Stack Exchange is a question-and-answer website with a very active discussion in the field of science history and mathematics.

More detailed information can be found through the following link:

*Having in mind that this might be of interest https://hsm.stackexchange.com/questions/2404/what-are-the-most-famous-polymaths-of-the-20th-century*

Having in mind that this might be of interest for our readers, we publish the list.

# POLYMATHS FROM THE 20TH CENTURY

**Ottó Herman** (*1835–1914*) was a Hungarian zoologist, ethnographer, archaeologist, and politician; a polymath recognized as a pioneer of Hungarian natural history research. He made numerous studies on Hungarian spiders, birds, and fishes, founded the journal Natural History Notebooks, which became one of the most popular scientific publications of Hungary, and the ornithological journal Aquila. He is called "the Father of the birds" in Hungary.

On March 1, Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service took part at the public lectures of Georgetown University Professor Dr. Toby Long, an internationally renowned consultant on children with disabilities and special health care needs, hosted at the Baku American Center upon the invitation of the US Embassy in Azerbaijan. Dr. Long's Lecture was dedicated to "Inclusive Education: Moving Beyond Inclusion to Participation". Dr. Long is a Professor in the Department of Pediatrics at Georgetown University, and serves as the Training Director of the Center for Child and Human Development at the University Center for Excellence in Developmental Disabilities.

In the training, the importance of the of students not just studying with others in the inclusive education, but also their active involvement in social life was discussed.





# ERASMUS+ PAWER LAYİHƏSİNİN DAXİLİ MONİTORİNQİ

# INTERNAL MONITORING MEETING OF THE ERASMUS + PAWER PROJECT

Martın 1-də Xəzər Universiteti və Bakı Mühəndislik Universitetinin tərəfdaşı olduğu Erasmus+ PAWER layihəsinin daxili monitorinq görüşü keçirildi. Layihənin monitorinqi tərəfdaş təşkilat olan Vroslav Universitetinin (Wrocław University) əməkdaşları Krzysztof Kafarski və Anna Posadowska-Malarz tərəfindən həyata keçirilirdi.

Xəzər Universiteti və Bakı Mühəndislik Universitetinin əməkdaşları layihənin həyata keçirilməsi ilə bağlı geniş təqdimatla çıxış edərək, layihə çərçivəsində yerinə yetirilən işlər haqqında məlumat verdilər və monitorinq komissiyasının suallarını cavablandırdılar. Dinlənilən məlumatlar, hesabatlar qənaətbəxş hesab edildi və layihənin həyata keçirilməsində görülən işlər təqdir olundu.

Qeyd edək ki, monitorinqdə Xəzər Universitetinin və Bakı Mühəndislik Universitetinin layihə üzvləri ilə yanaşı, Milli Erasmus+ ofisinin əməkdaşı da iştirak edirdi.

On March 1, the Internal Monitoring Meeting of the Erasmus + PAWER project, which is the partner of Khazar University and Baku Engineering University, took place. Project monitoring was carried out by Krzysztof Kafarski and Anna Posadowska-Malarz, the employees of the partner organization Wrocław University. Representatives of Khazar University and Baku Engineering University made an extensive presentation on the project implementation and informed about the work carried out within the project and answered the questions of the monitoring commission. The information provided was considered satisfactory and the accomplished work within the project implementation was appreciated.

It should be noted that, along with project members from Khazar University and Baku Engineering University, the employee of the National Erasmus + office also took part in the monitoring session.







# İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ XƏTAİ SƏNƏT MƏRKƏZİNDƏ

# STUDENTS OF SCHOOL OF ECONOMICS AND MANAGEMENT AT KHATAI ARTS CENTER

Martın 2-də Xətai Sənət Mərkəzində Azərbaycan Gənclər Fondunun dəstəyi, Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin müəllimləri Qəhrəman Yusupov və Kamran Behbudovun təşkilatçılığı ilə "Gənc yaradıcı əllər" sərgisi təşkil olundu. Sərgidə 60-dan çox iştirakçı, o cümlədən, Xəzər Universitetinin tələbələri öz istedadlarını nümayiş etdirdilər. Mahnı oxuyan, şeir deyən, əl işləri hazırlayan, piano, gitara və digər musiqi alətlərində ifa edən çoxsaylı gənclər istedadlarını göstərdilər. Sərgiyə 450 nəfərdən çox iştirakçı gəlmişdi.

Qeyd edək ki, bu ilin mayında bu formatda sərgini Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin turizm və otelçilik ixtisasının tələbələri "Turizmdə innovasiyalar" mövzusunda təqdim etməyə hazırlaşırlar.

On March 2, Young Creative Hands Fair was held at the Khatai Arts Center with the support of the Azerbaijan Youth Foundation and with the organization of the teachers of Khazar University's Economics and Management School, namely Gahraman Yusupov and Kamran Behbudov. More than 60 participants, including Khazar University students demonstrated their talents at the exhibition. Many young people presented their talents by singing songs, reciting poems, making handicrafts, performing piano, guitar and other musical instruments. More than 450 visitors have visited the exhibition.

It should be noted that this year in May students of Khazar University's Economics and Management School, majoring in Tourism and Hotel Management are preparing to present "Innovation in Tourism" Fair to be organized in the same format.







# "ÇOXBİLGİNLİK" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "POLYMATHS"

Martın 4-də Xəzər Universitetində "Çoxbilginlik" (*On Polymaths*) mövzusunda seminar keçirildi. Seminarı giriş sözü ilə İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani açaraq, Böyük Britaniyadan dəvət olunmuş "The Polymath" ("Çoxbilginlik") kitabının müəllifi, Xəlili kolleksiyasının bədii rəhbəri, FIRST jurnalının diplomatik müxbiri Ahmed Wagas haqqında geniş məlumat verdi. A.Waqas çoxbilginlik haqqında danışaraq, dünyada bu sahədə görülən işlər və araşdırmalar haqqında geniş məlumat verdi.

Sonda o, tələbələrin və "Dünya" məktəbinin şagirdlərinin suallarını cavablandırdı.

On March 4, a seminar on "Polymaths" was held at Khazar University. In an opening statement, Dr. Bahman Amani, the Head of the English Language and Literature Department, provided extensive information about Mr. Waqas Ahmed, the author of "The Polymath", the Artistic Director at the Khalili Collections, FIRST magazine's diplomatic correspondent, who was invited from the UK. Mr. Waqas talked about polymath, and gave detailed information about the work and research done in this field in the world.

In the end he answered questions asked by the University students and also high school students from "Dunya" school.





# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI İLAHİYYAT İNSTİTUTUNDA ÇIXIŞ ETDİ

# KHAZAR UNIVERSITY EMPLOYEE DELIVERED TALK AT THEOLOGY INSTITUTE

Martın 4-də Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru, "Xəzər" Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova Azərbaycan İlahiyyat İnstitutunda (AİI) "Qadının müasir cəmiyyətdə yeri və rolu" mövzusunda təşkil edilən tədbirdə iştirak etdi. Psixoloq Mələk Kərimova "Qadın psixologiyası: qadınların problem həlletmə və düşüncə tərzi" mövzusunda çıxış edərək, qadınların beyin quruluşu, düşüncə, hadisələri dəyərləndirmə tərzlərini nümunələrlə izah etdi.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova, Penitensiar Xidmətin 4 saylı Cəzaçəkmə Müəssisəsinin tərbiyə işləri üzrə rəis müavini, ədliyyə polkovnik-leytenantı Sevda Zamanova, Azərbaycan Dillər Universiteti Regionşünaslıq kafedrasının dosenti, Gender Araşdırmaları Mərkəzinin direktoru Kifayət Ağayeva, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova, Penitensiar Xidmətin Tərbiyə İşinin Təşkili İdarəsinin inspektoru, ədliyyə kapitanı psixoloq Gülşən Əliyeva, Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov, "SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası" İB-nin Milli Proqram inkişaf direktoru, sosioloq Cavid İmamoğlu, ekspertlər və institutun müəllim-tələbə heyəti də iştirak edirdilər.

Tədbirdə qadının müasir cəmiyyətdə yeri və rolu, bu istiqamətdə aparılan işlər, mövcud problemlər, perspektivlər müzakirə edildi.

On March 4, Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service, attended the event on "The Place and Role of Women in a Modern Society" held at the Theology Institute of Azerbaijan (TIA). Psychologist Melek Karimova delivered speech on "Women's Psychology: Women's Ways of Problem Solving and Thinking" explaining examples of women's brain structure, ways of thinking and evaluation of the events.

The event was attended by Aynur Veysalova, Senior Advisor to the Information and Analytical Research Department of the State Committee for Family, Women and Children Affairs, Sevda Zamanova, Deputy Chief on Education of Penitentiary Service No. 4, Lieutenant Colonel of Justice, Kifayat Aghayeva, Associate Professor of the Regional Studies Faculty of the Azerbaijan University of Languages and Director of the Gender Studies Center, Mehriban Zeynalova, Chairperson of the "Temiz Dunya" Women Assistance Public Union, Gulshan Aliyeva, Inspector of the Office on Organizing Educational Work of the Penitentiary Service, Ahmed Niyazov, Doctor of Philosophy, Head of the Faculty of Islamic Studies of the Theology Institute, Javid Imamoglu, National Program Development Director of the "SOS Children's Villages Azerbaijan Association", and also attended by the experts and students and faculty staff of the Institute.

During the event, the place and role of a woman in modern society, work carried out in this direction, existing problems and perspectives were discussed.



# “ELM VƏ SƏNƏT MƏCLİSİ”NİN 69-CU MƏŞĞƏLƏSİ







Martın 5-də Xəzər Universitetində ənənəvi “Elm və Sənət Məclisi”nin 69-cu məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, Böyük Britaniyadan olan mütəxəssis Waqas Ahmed və onun Londonda yenicə çapdan çıxmış “The Polymath” kitabı haqqında geniş məlumat verdi.

Sonra Waqas Ahmed maraqlı məruzə ilə çıxış etdi. Çıxışdan sonra müzakirələr başlandı. Müzakirələrdə İnqilab Əhmədov, Hassan Niknafs, Hamlet İsaxanlı, Rövşən Abbasov, Ziya Səmədli (Xəzər Universiteti); Şahin Fazil (AMEA-nın Tarix İnstitutu), Vaqif Əmirkişiyev, Boran Əziz (Bakı Dövlət Universiteti); Asif Bayramov (Azərbaycan Universiteti) və digərləri iştirak etdilər və məruzəçiyə suallar verdilər.

Sonda H.İsaxanlı çox maraqlı məruzə üçün Waqas Ahmedə dərin təşəkkürünü bildirdi.





# 69TH SESSION OF THE ASSEMBLY OF SCIENCE AND ART WAS HELD

On March 5, the 69th Session of the traditional "Assembly of Science and Art" was held at Khazar University. In his opening statement, Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, provided extensive information about Mr. Waqas Ahmed and his new book "The Polymath", recently published in London.

Following that, Mr. Waqas Ahmed made an extensive and interesting report. After the talk, discussions took place. Ingilab Ahmedov, Hassan Niknafs, Hamlet Isakhanli, Rovshan Abbasov, Ziya Samadli (Khazar University); Shahin Fazil (Institute of History of ANAS), Vagif Amirkishiyev, Boran Aziz (Baku State University); Asif Bayramov (Azerbaijan University) and others took part at the discussions and asked questions.

At the end H. Isakhanli expressed his gratitude to Mr. Waqas Ahmed for a very interesting report.








# WAQĀS AHMEDİN KİTABININ TƏQDİMATI




Martın 5-də Xəzər Universitetinin mərkəz kampusunda "Elm və Sənət Məclisi"nin 69-cu məşğələsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının dəvəti ilə Xəlili Kolleksiyasının bədii rəhbəri Waqās Ahmed 2018-ci ildə Böyük Britaniyada nəşr olunmuş *The Polymath. Unlocking the Power of Human Versatility* ("Çoxbilgin. İnsan çoxyönlülüyünü üzə çıxarmaq") kitabını təqdim etdi və kitabda qoyulmuş mövzu ətrafında müzakirələr apardı. Kitab çoxbilginlik fenomeninə həsr olunmuşdur. Çoxbilginlərin qısa şəkildə təsviri belədir: "Çoxlu, bir-biri ilə bağlı olmayan sahələrdə önə çıxmış, xüsusi olaraq çoxyönlü insanlar".

Kitabda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da başqa görkəmli şəxslər arasında müasir dövrün az sayda olan çoxbilginlərindən biri olaraq təqdim edilmiş və onun fikirlərindən çoxsaylı iqtibaslar edilmiş, onun çoxbilgin kimi fəaliyyəti ayrıca təhlil olunmuşdur.

Qeyd edək ki, Waqās Ahmed Xəzər Universitetinin tələbələri və işçi heyəti, həmçinin, Azərbaycanın tanınmış elm və sənət adamları üçün çoxbilginlik və Xəlili Kolleksiyası haqqında seminarlar silsiləsi ilə çıxış etmək üçün martın 3-dən 7-dək Bakıda olmuşdur.

# PRESENTATION OF BOOK OF WAQĀS AHMED

On March 5, at the 69th session of the "Assembly of Science and Art", which was held at the Khazar University downtown campus, upon the invitation of Hamlet Isaxanli, the Founder of Khazar University and the Chairman of the Board of Directors and Trustees, Mr Waqās Ahmed, the Artistic Director at the Khalili Collections, presented his newly published book *The Polymath. Unlocking the Power of Human Versatility* (published in Great Britain, 2018) and took up discussions around the subject set in the book. The book is dedicated to the phenomenon of polymathy. The concise way of defining polymaths is: "Humans of exceptional versatility, who excel in multiple, seemingly unrelated fields."

The book introduces Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of the Board of Directors and Trustees among other prominent people as one of few polymaths of modern time.

It also presents a lot of Prof. Isakhanli's quotes and his activities as a polymath has been looked into.

It is worth mentioning that Waqās Ahmed is on a trip to Baku between 3-7 March, to deliver a series of seminars on polymathy and the Khalili Collections for Khazar University students and staff, as well as well-known science and art people of Azerbaijan.





## TARİX MÜƏLLİMLİYİ İXTİSASININ I KURS TƏLƏBƏLƏRİ PROFESSOR FƏZAİL VƏLİYEVLƏ GÖRÜŞDÜLƏR

## 1ST YEAR STUDENTS MAJORING IN HISTORY (TEACHING) MET WITH PROFESSOR FAZAIL VALIYEV

Martın 5-də AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi professor Fəzail Vəliyev Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Samirə Qarayevanın tədris etdiyi etnoqrafiya dərsinin qonağı oldu. Professor tarix müəllimliyi ixtisasının I kurs tələbələrinə etnoqrafiya elmi haqqında geniş məlumat verdi.

Sonda F.Vəliyev tələbələrin suallarını cavablandırdı.

On March 5, Professor Fazail Valiyev, Chief Scientific Officer of the Institute of Archeology and Ethnography of ANAS, being a special guest of ethnography lesson taught by Samira Garayeva at Khazar University, met with the 1st year students, majoring in History (Teaching). Fazail Valiyev gave information about ethnographic science to students.

At the end of the meeting, Professor Valiyev answered to the questions asked by the students.

## 1-Cİ BEYNƏLXALQ ƏNƏNƏVİ TÜRK MƏZAR DAŞLARI SİMPOZİUMUNUN MATERİALLARINDAN İBARƏT TOPLU ÇAPDAN ÇIXIB

1-ci Beynəlxalq Ənənəvi Türk Məzar Daşları Simpoziumunun materiallarından ibarət toplu Türkiyədə çapdan çıxmışdır.

Qeyd edək ki, 2018-ci il sentyabrın 19-dan 21-dək Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində keçirilmiş 1-ci Beynəlxalq Ənənəvi Türk Məzar Daşları Simpoziumunun təşkilatçılarından biri Xəzər Universiteti, digər təşkilatçıları Ərciyes Universiteti və Türk Tarix Qurumu idi.




## MATERIALS OF I INTERNATIONAL TRADITIONAL TURKIC PEOPLES' GRAVESTONE SYMPOSIUM WERE PUBLISHED AS A BOOK

Materials of the I International Traditional Turkic Peoples' Gravestone Symposium were published as a book in Turkey.

It should be noted, that one of the organizers of the I International Traditional Turkic Peoples' Gravestone Symposium held at the Azerbaijan National Museum of History of Azerbaijan National Academy of Sciences from 19th to 21st of September 2018, was Khazar University. Other symposium organizers were Erciyes University and Turkish Historical Society.



# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 70-Cİ MƏŞĞƏLƏSİ

Martın 6-da Xəzər Universitetinin şəhər mərkəzindəki kampusunda (Bəşir Səfəroğlu küç.122) ənənəvi "Elm və Sənət Məclisi"nin 70-ci məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, İngiltərədən dəvət olunmuş "The Polymath" kitabının müəllifi, Xəlili kolleksiyasının bədii rəhbəri, FİRST jurnalının diplomatik müxbiri Waqas Ahmed haqqında geniş məlumat verdi.

Sonra W.Ahmed Londonda yerləşən "Khalili" kolleksiyası, oradakı qiymətli əsərlər haqqında geniş məlumat verdi. O, Xəlili kolleksiyasına məxsus qədim İslam dövrünə aid qiymətli əsərlərin video görüntülərini nümayiş etdirdi. Tədbirdə Xəzər Universitetinin müəllimləri və dizayn ixtisası üzrə təhsil alan tələbələr, Bakı şəhərində fəaliyyət göstərən 28 muzeyin nümayəndələri və digər şəxslər iştirak edirdi. Məruzə ətrafında müzakirələrdə Fəxriyyə Əliyeva (İstiqlal Muzeyi), Hamlet İsaxanlı (Xəzər Universiteti) Məlahət Fərəcova (Qala Qoruğu), Afaq Kərimova, Hassan Nuknafs, Əlövsət Əmirbəyli (Xəzər Universiteti) və digərləri çıxış etdilər.

Sonda Waqas Ahmed bütün iştirakçılara və şəxsən professor Hamlet İsaxanlıya dərin təşəkkürünü bildirdi. O, Xəlili kolleksiyasından gətirdiyi qiymətli hədiyyəni H. İsaxanlıya təqdim etdi.









# 70TH SESSION OF THE "ASSEMBLY OF SCIENCE AND ART" WAS HELD

On March 6, the 70th session of the "Assembly of Science and Art" was held at the Khazar University downtown campus. In his opening statement, Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, provided extensive information about Mr. Waqās Ahmed, the author of "The Polymath", Artistic Director at the "Khalili Collections", FIRST magazine's diplomatic correspondent, who was invited from the UK.

Following Professor Hamlet Isakhanli's speech, W. Ahmed gave a broad overview about the London-based "Khalili" collection and valuable works there. He made a video presentation of the valuable works of the ancient Islamic period belonging to the "Khalili" collection. The event was attended by teaching staff from Khazar University and students majoring in design, representatives of 28 museums operating in Baku and others. Fakhriyya Aliyeva (Istiglal Museum), Hamlet Isakhanli (Khazar University), Malahat Farajova (Qala Reserve) Afag Karimova, Hassan Niknafs, Alovsat Amirbeyli (Khazar University) and others participated in the discussion.

At the concluding part of the session, Waqas Ahmed expressed his appreciation to all participants and personally to Professor Hamlet Isakhanli.

He presented his valuable present from "Khalili Collections" to H. Isakhanli.

*69 və 70-ci məşğələlərdən fotolar səh. 46-da*

*Pictures from the sessions 69 and 70 are on page 46*
















KHALILI

# XƏZƏR UNİVERSİTETİ İLƏ DURHAM UNİVERSİTETİ ARASINDA ƏLAQƏLƏR GENİŞLƏNİR

Martın 7-də Xəzər Universitetinin rektoru vəzifəsini icra edən, Elmi işlər üzrə prorektor dosent İradə Xəlilova Böyük Britaniyanın Durham Universitetində olub, bir sıra şəxslərlə görüşüb.

İ.Xəlilova səfər zamanı Durham Universiteti Bioloji elmlər departamentinin dosenti Gary Sharples, Yer elmləri departamentin Geokimya sahəsi üzrə rəhbəri professor Chris Greenwell, Bioloji elmlər departamentinin Elmi işlər üzrə direktoru professor Nigel Robinson, Tədqiqatlar və innovasiyalar üzrə şöbənin rəhbəri Lorna Yulson, Beynəlxalq şöbənin Orta Asiya və Afrika bölgələri üzrə meneceri Dr. Kola Mudashiru, Xarici universitetlərlə mübadilə və xaricdə təhsil üzrə menecer Emma Pearce, Matariki Universitetlər şəbəkəsi katibliyinin rəhbəri Lucy Turzynski ilə görüşlər keçirdi.

Görüş zamanı Xəzər Universiteti və Durham Universiteti arasında birgə tədqiqat layihələri, gələcək yeni əməkdaşlıq yolları və birgə təhsil proqramları haqqında müzakirələr aparıldı.





# KHAZAR UNIVERSITY AND DURHAM UNIVERSITY EXPAND THE RELATIONSHIP

On March 7, Assoc. prof. Irada Khalilova, acting Rector and vice-Rector for Research of Khazar University, visited the Durham University in the UK. She had a meeting with Gary Sharples, Associate Professor in Molecular Biology from Department of Biosciences, Prof. Chris Greenwell, Chair in Geochemistry in the Department of Earth Science, Prof. Nigel Robinson, Research Director of Department of Biosciences, Lorna Wilson, Head of Research Development in the Research and Innovation Services, Dr. Kola Mudashiru Regional Manager (Middle East and Africa) in International Office, Emma Pearce, Exchanges and Study Abroad Manager, Lucy Turzynsky, Head of Secretariat, Matariki Network of Universities. Discussions were held concerning the issues such as current jointly submitted research project between Khazar University and Durham University, and also new opportunities of collaboration and joint educational programs between Khazar and Durham University.



# ÇEX RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİNİN MÜAVİNİ XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏ OXUDU

# DEPUTY HEAD OF MISSION OF CZECH EMBASSY IN AZERBAIJAN DELIVERED LECTURE AT KHAZAR UNIVERSITY

Martın 7-də Xəzər Universitetinin Avropa Birliyi Araşdırmaları Mərkəzinin *(European Union Studies Centre)* dəvətilə Xəzər Universitetində qonaq olan Çex Respublikasının Azərbaycandakı səfirinin Siyasət və mədəniyyət məsələləri üzrə müavini Daniel Putik tələbələrlə görüşdü. Mərkəzin direktoru Baba Bayramlı qonağı səmimi salamladı və ona Avropa Birliyinin Tempus layihəsi əsasında yaradılmış Avropa Birliyi Araşdırmaları Mərkəzinin məqsəd və fəaliyyət istiqamətləri barədə məlumat verdi. Dəvətə görə öz təşəkkürünü bildirən çexiyalı diplomat tələbələr qarşısında "Çex Respublikası Avropa Birliyində və Çexiya-Azərbaycan münasibətləri" mövzusunda geniş mühazirə ilə çıxış etdi.

Görüşdə fəal iştirak edən tələbələr Daniel Putikə suallarını ünvanladılar. Canlı diskussiya şəraitində keçən görüşdən sonra Daniel Putik və Baba Bayramlı Çex Respublikasının Azərbaycandakı səfirliyi ilə Xəzər Universiteti arasında əməkdaşlıq imkanları ilə bağlı müzakirə apardılar.

On March 7, Daniel Putik, Deputy Head of Mission on Political, Cultural and Press Agenda of the Embasy of Czech Republic in Baku, met with the students at the Khazar University. Mr. Putik was invited by the European Union Studies Center. Baba Bayramli, Center's Director warmly welcomed the guest and gave information on the goals and objectives of the European Union Studies Center, which was established under the EU Tempus project. Expressing his gratitude for the invitation, Czech Mission diplomat delivered a lecture on "Czech Republic's role in the European Union and the Relations Between the Czech Republic and Azerbaijan".

The students who actively participated in the meeting addressed their questions to Daniel Putik. Following the interactive discussion, Daniel Putik and Baba Bayramli discussed the opportunities of cooperation between the Embassy of Czech Republic in Azerbaijan and Khazar University.

# HUMANİTAR, TƏHSİL VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ ELMİ ŞURASININ İCLASI

# MEETING OF THE SCIENTIFIC COUNCIL OF THE FACULTY OF HUMANITIES, EDUCATION AND SOCIAL SCIENCES

Martın 11-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədovanın sədrliyi ilə fakültənin elmi şurasının iclası keçirildi. Elmi şuranın iclasında universitetin Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Vurğun Əyyub, Tarix və arxeologiya departamentinin müdiri dosent Roza Arazova, Riyaziyyat departamentinin müdiri Dr. Əli Hüseynli, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani, Musiqi və incəsənət departamentinin müdiri professor Zülfiyyə Sadıqova, Siyasi elmlər və beynəlxalq münasibətlər departamentinin müdürü Dr. Elmar Mustafayev, Dillər və ədəbiyyatlar departamentinin müəllimi dosent Dilbər Zeynalova, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova, fakültənin dekan müavini Validə Kərimova, fakültə elmi şurasının katibi Sayad Aslanlı iştirak edirdilər.

Elmi şuranın iclasında 2018-2019-cu tədris ilinin yaz semestrinə qeydiyyatla əlaqədar fakültə dekanı çıxış edərək, tələbələrin fərdi qeydiyyatları, qrup sayları və s. haqqında məlumat verdi. Fakültə dekanı, eyni zamanda, dərs dinləmələrinin əhəmiyyətini vurğulayaraq, dərslərin keyfiyyətinə nəzarətin, sillabusa uyğunluğu məsələlərinə diqqət çəkdi. İclasda İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani ingilis dili qruplarında və dərslərində tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində gördükləri tədbirlər haqqında məlumat verdi. Departament müdirləri müzakirə olunan məsələlərə münasibət bildirərək, cari məsələlərin də həllinə aid təkliflərini söylədilər.

Eyni zamanda, şurada gündəlikdəki məsələlər ətrafında müzakirələr aparıldı və müvafiq qərarlar qəbul edildi.

On March 11, a Meeting of the Scientific Council of the Faculty of Humanities, Education and Social Sciences was held, directed by Associate Professor Elza Samedova, Dean of the Faculty. The Meeting was attended by the Associate Professor Vurgun Eyyub, Head of the Department of Languages and Literature, Associate Professor Roza Arazova, Head of Department of History and Archeology, Dr. Ali Huseynli, Head of Mathematics Department, Dr. Bahman Amani, Head of English Language and Literature Department, Zulfiyya Sadigova, Head of Department of Music and Fine Arts, Dr. Elmar Mustafayev, Head of Political Sciences and Philosophy Department, Associate Professor Dilbar Zeynalova, instructor of the Department of Languages and Literature, Melek Karimova, Director of the Center for Psychological Service, Valida Karimova, Vice-Dean of the Faculty and Sayad Aslanli, Secretary of the Scientific Council of the Faculty.

At the meeting of the Scientific Council, Dean of the Faculty delivering speech on the enrollment for the 2018/2019 summer semester, provided information about students' personal registrations, group numbers, etc. The Dean also emphasized the importance of classroom lectures, drew attention to the quality of lessons, syllabus compatibility issues. Dr. Bahman Amani, Chief advisor of the English Language and Literature Department, briefed on the measures taken to improve the quality of teaching in English language groups and classes. Heads of the Departments expressed their views on the issues discussed and made proposals for the solution of current issues.

At the same time, discussions were held around the Council's agenda and relevant decisions were made.





# 8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ BAYRAM ŞƏNLİYİ







Martın 7-də Xəzər Universitetində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bayram şənliyi keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşlar və qonaqlar - professor Hamlet İsaxanlının dəvəti ilə Böyük Britaniyadan Bakıya gəlib, "Elm və Sənət" məclisinin iki məşğələsində məruzə edən, çoxbilginlik (Polymath) üzrə mütəxəssis, Xəlili Kolleksiyasının bədii rəhbəri, FIRST yurnalının diplomatik müxbiri Waqas Ahmed öz həyat yoldaşı ilə iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qadın əməkdaşları təbrik edərək, kollektivin həyatında onların uğurlu fəaliyyətindən danışdı, gələcək işlərində və şəxsi həyatlarında onlara müvəffəqiyyətlər arzuladı, öz şeirlərini oxudu.

Universitetin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor dosent İsaxan İsaxanlı, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Bahman Amani, həmin departamentin baş müəllimi Firəngiz Nəsirova, universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, universitetin əcnəbi doktorantı Fariba Farhangi də çıxış edərək, kollektivin qadın üzvlərinin ünvanına xoş sözlər söylədilər, onlara uğurlar arzuladılar.

Universitetin Psixologiya departamentinin koordinatoru, "Xəzər" Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova qadın-kişi münasibətlərinə aid əyləncəli test təqdim etdi.

Bayram şənliyində universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu. İştirakçılar rəqs edib əyləndilər, mahnılar oxudular. Tədbir xoş əhval-ruhiyyə ilə başa çatdı.







## CELEBRATION OF INTERNATIONAL WOMEN'S DAY ON MARCH 8

On March 7, the International Women's Day was celebrated at Khazar University. The event was attended by University Administration, employees and guests – including special guest Mr. Waqās Ahmed and his wife. Mr. Waqās Ahmed, the Polymath expert, the Artistic Director at the Khalili Collections, FIRST magazine's diplomatic correspondent came to Baku from the UK upon the invitation of Professor Hamlet Isakhanli and took part at two sessions of the "Assembly of Science and Art".

Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees congratulating women employees, spoke about their successful activity in the life of the collective, wished them success in their future work and personal lives and also recited his poems.

Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs, Bahman Amani, Head of English Language and Literature Department, and Head Instructor of this Department Firangiz Nasirova, Alovsat Amirbeyli, Director for Public Relations and Media, Fariba Farhangi, Foreign PhD student, delivered congratulatory remarks addressed to women employees and wished them every success.

Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service, conducted a fun test on female and male relationships.

The concert program, prepared by the Music and Art Department, was presented. The participants spent joyful time dancing and singing. The event granted everyone with a good mood.





# PROFESSOR HAMLET İSAXANLININ BUSINESS/WORK VISIT OF

*Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 11-15-də Türkiyədə işgüzar səfərdə olmuşdur.*

## ERCİYES UNİVERSİTETİNİN REKTORU İLƏ GÖRÜŞ
## MEETİNG WITH THE RECTOR OF ERCIYES UNIVERSITY





Martın 11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Kayseri şəhərində yerləşən Erciyes Universitetinin rektoru Mustafa Çalışla görüşdü. Görüş zamanı H.İsaxanlı rektora Xəzər Universiteti haqqında geniş məlumat verdi və universitetin hədiyyələrini ona təqdim etdi.

H.İsaxanlı və Mustafa Çalış iki universitet arasında əlaqələrin davam etdirilməsi ilə əlaqədar rəsmi protokolları imzaladılar. Görüş zamanı qərara alındı ki, bundan sonra təhsil sahəsində əlaqələr daha da genişləndirilsin. Mustafa Çalış Erciyes Universitetinin hədiyyəsini H. İsaxanlıya təqdim etdi.

On March 11, 2019, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees met with Mustafa Çalış, the Rector of Erciyes University. During the meeting H. Isakhanli provided a detailed information about Khazar University to the Rector and presented him University's gifts. H. Isakhanli and Mustafa Çalış signed the Official Protocols on the Prolongation of Relations between the Universities. It was decided during the meeting to enhance further the relations in the field of education. Mustafa Çalış presented the Erciyes University's gifts to Hamlet Isakhanli.

# TÜRKİYƏYƏ İŞGÜZAR SƏFƏRİ

# PROFESSOR HAMLET ISAXANLI TO TURKEY

*Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, made a business trip to Turkey on March 11-15.*

## ERCİYES UNİVERSİTETİNİN PROREKTORU İLƏ GÖRÜŞ

## MEETING WITH THE VICE PRESIDENT OF ERCIYES UNIVERSITY



Martın 11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Erciyes Universitetinin prorektoru professor Recai Kılıç və Ədəbiyyat fakültəsinin dekanı professor Ali Aktanla görüşdü. Görüş zamanı hər iki üniversitet arasında əməkdaşlığın daha da genişləndirilməsi, iki tərəfli tələbə mübadilə proqramlarının həyata keçirilməsi müzakirə olundu.

Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Erciyes Universitetinin professoru Sevinc Üçgül və türkiyəli şair- yazar İmdat Avşar iştirak etdilər.

On March 11, Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met with Professor Recai Kılıç, Vice-Rector of the Erciyes University and Professor Ali Aktanç Dean of the Faculty of Literature. During the meeting, the parties discussed further cooperation enhancement between two universities, the implementation of bilateral student exchange programs. Alovsat Amirbeyli, Director for Public Relations and Media, Sevinç Üçgül, Professor of Erciyes University and Imdat Avshar, Turkish poet-writer also attended the meeting.




# ERCİYES UNİVERSİTETİNDƏ OXUCULARLA GÖRÜŞ

# MEETING WITH READERS AT ERCIYES UNIVERSITY

Martın 11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının İstanbulda ikinci dəfə nəşr edilən "Hazana övgü" kitabının Erciyes Universitetində təqdimat mərasimi keçirildi. Mərasimi giriş sözü ilə Erciyes Universitetinin professoru Sevinc Üçgül açaraq, Hamlet İsaxanlının həyat və yaradıcılığı haqqında danışdı.

Kitabın tərcüməçisi şair-yazar İmdat Avşar şeirlər kitabının türk oxucuları üçün özəlliyindən danışdı. Hamlet İsaxanlının sözlərinə bəstələnmiş mahnılar ifa olundu. Ədəbiyyat fakültəsi tələbələrinin ifasında seçmə şeirlər səsləndirildi.

Sonra Hamlet İsaxanlı öz şeirlərini oxudu. O, müəllimlərin və tələbələrin çoxsaylı suallarını cavablandırdı və imzalı kitablar oxuculara təqdim edildi.

On March 11, the Presentation and signing session of the book of Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, entitled "Praise to Autumn", which second edition was published in Istanbul, was held in Erciyes University, in the city of Kayseri. Opening the presentation evening, Sevinç Üçgül, Professor of Erciyes University, in his opening statement spoke about Hamlet Isakhanli's life and creativity.

The translator of the book, poet-writer Imdat Avshar delivered talk about the idiosyncrasies of the book of poems for Turkish readers. Following that Hamlet Isakhanli's poems, set to music, were performed. Selected poems were recited by the students of the Faculty of Literature. Then Hamlet Isakhanli also recited his poems. He answered many questions asked by teachers and students, and signed books were presented to the readers.










Hamlet İSAHANLI



# PROFESSOR HAMLET İSAXANLI KAYSERİ UNİVERSİTETİNDƏ

# PROFESSOR ISAKHANLI AT KAYSERI UNIVERSITY

Martın 11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Kayseri Universitetinin rektoru professor Kurtuluş Karamustafa ilə görüşdü. K.Karamustafa Kayseri Universiteti haqqında geniş məlumat verdi və Hamlet İsaxanlıya hədiyyə təqdim etdi. H.İsaxanlı xoş və səmimi görüş üçün rektor Kurtuluş Karamustafaya təşəkkürünü bildirdi və onu Bakıya dəvət etdi.

Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Erciyes Universitetinin professoru Sevinc Üçgül, türkiyəli yazar İmdat Avşar iştirak etdilər.

On March 11, Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited Professor Kurtuluş Karamustafa, Rector of Kayseri University. At the official meeting, Professor Karamustafa provided extensive information about Kayseri University and presented his gift to Hamlet Isaxanli. H. Isaxanli in his turn, expressed his sincere gratitude to Professor Karamustafa for a warm and friendly meeting and invited him to visit Baku. Alovsat Amirbeyli, Director for Public Relations and Media, Sevinç Üçgül, Professor of Erciyes University and Imdat Avshar, Turkish poet-writer also attended the meeting.








## PROFESSOR HAMLET İSAXANLI NİĞDE ÖMER HALİSDEMİR UNİVERSİTETİNDƏ

## PROFESSOR HAMLET ISAXANLI AT NIĞDE ÖMER HALISDEMIR UNIVERSITY

Martın 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, türkiyəli şair-yazar İmdat Avşar Niğde Ömer Halisdemir Universitetində oldular. Universitetin rektoru professor Muhsin Kar, prorektorlar, fakültə dekanları qonaqları çox səmimi qarşıladılar. Rektor Muhsin Kar qonaqlara universitet haqqında geniş məlumat verdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Xəzər Universiteti, oradakı fakültələr və ixtisaslar haqqında məlumat verərək, Niğdə Ömer Halisdemir Universitetinin rektoruna hədiyyə təqdim etdi.

Sonra Niğde Ömer Halisdemir Universiteti Elmi Şurası üzvlərinin iştirakı ilə hər iki universitet arasında anlaşma protokolu və Mevlana mübadilə protokolu imzalandı. Muhsin Kar Hamlet İsaxanlıya universitetin hədiyyələrini təqdim etdi. Universitetin rektoru adından Xəzər Universitetindən gələn qonaqların şərəfinə geniş ziyafət verildi. Ziyafətdən sonra qonaqlar universitet və orada yaradılmış müasir laboratoriyalarla tanış oldular. Hər iki universitetin rəhbəri gələcəkdə birgə simpoziumlar, konfranslar keçirməyi qərara aldılar.

On March 12, Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Alovsat Amirbeyli, Director for Public Relations and Media, and Imdat Avshar, Turkish poet-writer visited Niğde Ömer Halisdemir University. Professor Muhsin Kar, the Rector of the University, Vice-rectors, Faculty Deans cordially welcomed the guests. Rector Muhsin Kar gave a detailed information about the University to the guests. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, providing information about Khazar University, its faculties and majors, handed over a present to the Rector of the Niğde Ömer Halisdemir University. Afterwards a Protocol of understanding and a Mevlana exchange protocol were signed between the two Universities with the participation of the members of the Scientific Council of Niğde Ömer Halisdemir University. M. Kar presented the University's gifts to Hamlet Isakhanli. Furthermore, on behalf of the Rector of the University, a large reception was organized in honor of guests from Khazar University. After the reception guests were introduced to the University and its installed modern laboratories. The head of both Universities decided to hold joint symposiums and conferences in the future.



# NİĞDE ÖMER HALİSDEMİR UNİVERSİTETİNDƏ "HAZANA ÖVGÜ" KİTABININ TƏQDİMATI VƏ İMZA GÜNÜ KEÇİRİLDİ

# PRESENTATION OF THE BOOK "PRAISE TO AUTUMN" AT NIĞDE ÖMER HALISDEMIR UNIVERSITY AND ITS SIGNATURE DAY

Martın 12-də Niğdə Ömer Halisdemir Universitetinin böyük konsert salonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının İstanbulda yeni çapdan çıxmış "Hazana övgü" kitabının təqdimatı və imza günü keçirildi. Hamlet İsaxanlının həyat və yaradıcılığı haqqında geniş məlumat verildi. Kitabın tərcüməçisi, şair-yazar İmdat Avşar "Hazana övgü" şeirlər kitabı haqqında danışdı, şeirlər haqqında fikirlərini bildirdi.

Sonra Hamlet İsaxanlı salona toplaşanları səmimi salamlayaraq, çoxlu sayda şeirlərini oxudu.

Təqdimat mərasimindən sonra universitetin foyesində tələbələr "Hazana övgü" kitabını imzalatmaq və xatirə şəkilləri çəkdirmək üçün toplaşdılar. İmza tədbirindən sonra Hamlet İsaxanlı tələbələrin suallarını cavablandırdı.

Təqdimat və imza günü keçirilməsi münasibətilə professor Hamlet İsaxanlı rektor Muhsin Kar tərəfindən təşəkkürnamə ilə təltif olundu.

On March 12, the presentation of the new book of Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, entitled "Praise to Autumn" and its signature day was held at the Big Concert Hall of Niğde Ömer Halisdemir University in Istanbul with the attendance of the faculty and students of the University. Information on Hamlet Isaxanli's life and creativity was provided in an extensive way. Imdat Avsar, the poet-writer and translator of the book, talked about the book of poems "Praise to Autumn" and shared his views on poet's poems.

Then, Hamlet Isaxanli after greeting the audience kindheartedly, devoted a great deal of poetry to them.

After the presentation, students gathered in the lobby of the University to get their copy of the book "Praise to Autumn" signed by the author and to make memorial photos. Hamlet Isaxanli answered students' questions after the signing ceremony.

Professor Hamlet Isakhanli was presented a letter of gratitude by the Rector Muhsin Kar on the occasion of the presentation and book's signing session.


Hamlet İSAHANLI
ŞİİR KİTABININ İMZA GÜNÜ
Hazana Övgü







## PROFESSOR İSAXANLI NEVŞEHİR HACI BEKTAŞ VELİ UNİVERSİTETİNDƏ

## PROFESSOR ISAKHANLI VISITED NEVŞEHIR HACI BEKTAŞ VELI UNIVERSITY

Martın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və şair-yazar İmdat Avşar Nevşehir Hacı Bektaş Veli Universitetində oldular. Universitetin rektoru, professor Mazhar Bağlı qonaqları səmimi salamlayaraq, universitet haqqında məlumat verdi.

H.İsaxanlı Xəzər Universitetinin yaradılması və bu günə kimi gördüyü işlərdən danışdı və hədiyyələrini rektora təqdim etdi. Mazhar Bağlı Nevşehir Hacı Bektaş Veli Universitetinin hədiyyəsini və təşəkkür plaketini Hamlet İsaxanlıya təqdim etdi. O, Bakıdan gələn qonaqların şərəfinə ziyafət verdi.

Hər iki universitetin rəsmiləri tərəfindən müqavilələr imzalandı.

On March 13, Professor Hamlet Isaxanli, the Founder of Khazar University and the Chairman of the Board of Directors and Trustees, Alovsat Amirbeyli, Director for Public Relations and Media and Imdat Avsar, Turkish poet-writer visited the Nevşehir Hacı Bektaş Veli University. Rector of the University, Professor Mazhar Bagli cordially welcomed the guests and gave information about the University.

H. Isaxanli spoke about the establishment of Khazar University and its activities and presented memorable gifts to the Rector. Rector of the Nevşehir Hacı Bektaş Veli University in his turn handed in a gift and courtesies to Hamlet Isakhanli. He also organized a dinner in honor of the guests from Baku.

Contracts were signed by the officials from both Universities.





## PROFESSOR HAMLET İSAXANLI OXUCULARLA GÖRÜŞDÜ

## PROFESSOR HAMLET ISAKHANLI MET WITH READERS

Martın 13-də Nevşehir Hacı Bektaş Veli Universitetinin konsert salonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, şair-yazar Hamlet İsaxanlı oxucuları ilə görüşdü.

Salona toplaşan çox sayda professor-müəllim heyəti və tələbələr şairin İstanbulda yeni nəşr olunmuş "Hazana övgü" kitabından şeirlər dinlədilər. Şairə çoxlu sayda suallar ünvanlandı.

Sonda yüzlərlə tələbə Hamlet İsaxanlıdan şeir kitabını imzalatmaq üçün növbəyə düzüldülər. Şairə şəxsi suallar verdilər, onunla xatirə şəkilləri çəkdirdilər.

On March 13, Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Professor, poet and writer met with his readers at the Concert Hall of Nevşehir Hacı Bektaş Veli University.

Many faculty members and students gathered in the hall listened to poems from "Praise to Autumn" recently published book of the poet in Istanbul. A lot of questions were addressed to the poet.

Finally, a lot of students lined up in the lobby to get their copy of the poems book signed by the author. They made personal questions to the poet and took memorable pictures with him.







KAPADOKYA ÜNİVERSİTESİ

Akıl - Ahlak - Adalet - Adap

## PROFESSOR HAMLET İSAXANLI KAPADOKYA UNİVERSİTETİNDƏ

## PROFESSOR HAMLET ISAKHANLI VISITED CAPPADOCIA UNIVERSITY

Martın 14-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli və şair-yazar İmdat Avşar Kapadokya Universitetində oldular. Universitetin rektoru, professor Hasan Ali Karasar qonaqları səmimi salamlayaraq, Türkiyənin tarixi bölgəsi olan Kapadokya və universitet haqqında məlumat verdi. Onları universitetin laboratoriyaları, muzey içində yerləşən sinifləri və kitabxanası ilə tanış etdi. Hasan Karasar Hamlet İsaxanlıya univresitetin hədiyyələrini, o cümlədən ən qiymətli hədiyyəsini – M.Ə.Rəsulzadənin 1930-cu ildə Parisdə rus dilində çap edilmiş "Panturanizm haqqında" kitabını təqdim etdi. H.İsaxanlı səmimi qəbul üçün Kapadokya Universitetinin rəhbərliyinə dərin təşəkkürünü bildirdi və Xəzər Universiteti haqqında məlumat verdi.

Hər iki universitet arasında rəsmi müqavilə imzalandı. Universitet rəhbərliyi tərəfindən qonaqların şərəfinə ziyafət verildi.

On March 14, Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Alovsat Amirbeyli, Director for Public Relations and Media, and Imdat Avshar, Turkish poet-writer visited Cappadocia University. Professor Hasan Ali Karasar, Rector of the University, cordially welcomed the guests and gave information about Kapadokya, the historical region of Turkey and the University. He acquainted guests with University labs, classrooms in the museum and the library. Rector Hasan Karasar presented the University gifts to Hamlet Isakhanli. Moreover, on behalf of the University of Cappadocia, he presented the most valuable gift - M.Raasulzadeh's book on "Panturanism", published in Paris in 1930 in Russian language. H. Isakhanli expressed his deep gratitude to the leadership of the University of Cappadocia for warm reception and gave information about Khazar University.

An official agreement was signed between the two universities. A reception was hosted by the University Administration in honor of the guests.




# PROFESSOR HAMLET İSAXANLI KAPADOKYA UNİVERSİTETİNDƏ İMZA GÜNÜ KEÇİRDİ

# PROFESSOR HAMLET ISAKHANLI'S BOOK SIGNING SESSION AT CAPPADOCIA UNIVERSITY

Martın 14-də Kapadokya Universitetində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının İstanbulda 2-ci dəfə nəşr edilmiş "Hazana övgü" kitabının təqdimatı və imza günü keçirildi. Mərasim H.İsaxanlı haqqında hazırlanmış slaydla başladı. Sonra Kapadokya Universiteti tələbələrinin ifasında şeirlər səsləndi. Kitabın tərcüməçisi, şair-yazar İmdat Avşar Hamlet İsaxanlının "Hazana övgü" kitabı haqqında danışdı və "Gedin, deyin anama" şeirini türkcə oxudu.

Sonra səhnəyə Hamlet İsaxanlı dəvət edildi. H.İsaxanlı şeirlərini oxudu və tələbələrin çoxsaylı və maraqlı suallarını cavablandırdı. Sonda H.İsaxanlı tərəfindən imzalanan kitablar oxuculara təqdim edildi, müəllim və tələbələrlə xatirə şəkilləri çəkildi.

On March 14, the presentation of the new book of Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, published in Istanbul for the second time, entitled "Praise to Autumn" and author's book signing session day was held at the Cappadocia University. The ceremony began with a presentation slide about H. Isakhanli. Then poetry was performed by students from Cappadocia University. The translator of the book, poet-writer Imdat Avshar talked about Hamlet Isakhanli's book "Praise to Autumn" and recited his poem "Go, tell my mother" in Turkish language. Afterwards, Hamlet Isakhanli was invited to the stage. Hamlet Isakhanli recited his poems and responded to numerous and interesting questions asked by students. At the end, the books signed by H. Isakhanli were presented to readers, memorable photos were taken with teaching staff and students.






## PROFESSOR HAMLET İSAXANLI KAHRAMANMARAŞ SÜTÇÜ İMAM UNİVERSİTETİNDƏ

## PROFESSOR HAMLET ISAKHANLI VISITED KAHRAMANMARAŞ SÜTÇÜ IMAM UNIVERSITY

Martın 15-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və şair-yazar İmdat Avşar Kahramanmaraş Sütçü İmam Universitetində oldular. Universitetin rektoru professor Niyazi Can qonaqları səmimi qarşılayaraq, yenidən görüşməyindən məmnun olduğunu bildirdi. N.Can Xəzər Universiteti ilə əlaqələrin bundan sonra da davam etdirilməsinin, tələbə-müəllim mübadilə proqramlarının həyata keçirilməsinin vacibliyini vurğuladı.

Hər iki universitetin rəhbərləri bundan sonra daha dörd il mübadilə prosesini həyata keçirtmək üçün müqavilələri imzaladılar. Hamlet İsaxanlı Xəzər Universitetinin hədiyyələrini Niyazi Cana təqdim etdi. Sonra Sütçü İmam Universitetinin rektoru professor Niyazi Can Hamlet İsaxanlıya və Əlövsət Əmirbəyliyə hədiyyələr təqdim etdi.

On March 15, Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Alovsat Amirbeyli, Director for Public Relations and Media, and Imdat Avshar, Turkish poet-writer visited Kahramanmaraş Sütçü İmam University. Professor Niyazi Can, Rector of the University, cordially welcomed the guests and expressed his pleasure to meet again. Professor N. Can emphasized the importance of continuing the relations with Khazar University and the necessity of implementing teacher-students exchange programs. The heads of both Universities signed contracts to implement official exchange for the period of four years. Hamlet Isaxanli presented Khazar University's courtesies to Niyazi Can. Then the Rector of the Sütçü İmam University, Professor Niyazi Can handed in gifts to Hamlet Isakhanli and Alovsat Amirbeyli.





# HAMLET İSAXANLI KAHRAMANMARAŞ SÜTÇÜ İMAM UNİVERSİTETİNDƏ OXUCULARLA GÖRÜŞDÜ

# HAMLET ISAKHANLI MET WITH READERS AT KAHRAMANMARAŞ SÜTÇÜ IMAM UNIVERSITY

Martın 15-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, "Hazana övgü" kitabının müəllifi professor Hamlet İsaxanlının Kahramanmaraş Sütçü İmam Universitetinin Cahit Zarifoğlu konfrans salonunda oxucularla görüşü oldu. Görüşə universitetin rektoru professor Niyazi Can, prorektorlar, dekanlar, bölüm rəhbərləri, yerli və xarici tələbələr, sıravi vətəndaşlar və digərləri qatılmışdılar.

Gözəl səsi ilə salondakıları riqqətə gətirən aparıcı Mehmet Yaşar salona toplaşanları salamlayaraq, kitabın müəllifi haqqında məlumat verdi. Universitetin 4-cü kurs tələbəsi Yusuf Yıldızın ifasında səslendirilən şeirlər alqışlarla qarşılandı. Kitabın tərcüməçisi, şair-yazar İmdat Avşar Hamlet İsaxanlının ədəbi irsi, İs-tanbulda ikinci dəfə çap olunan "Hazana övgü" şeirlər kitabı haqqında danışdı.

(Ardı səh.66-da)

On March 15, Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and author of the book "Praise to Autumn", met with readers at the Cahit Zarifoglu conference hall of the Kahramanmaraş Sütçü Imam University.

The meeting was attended by the Rector of the University Professor Niyazi Can, vice-rectors, deans, department heads, local and foreign students and other members of the public. Pulling audience's heartstrings with the beautiful voice, Mehmet Yashar welcomed everyone and introduced information about the author of the book. Poems performed by Yusuf Yildiz, 4th year student, were welcomed with applauses. Imdat Avshar, the translator of the book and Turkish poet-writer spoke about Hamlet Isakhanli`s literary legacy and the second edition of the "Praise to Autumn" published in Istanbul.

(To be continued page 66)








Sonra Hamlet İsaxanlı tamaşaçılar qarşısında çıxış edərək, salondakıları Azərbaycan və Xəzər Universiteti adından salamladı və şeirlərini oxudu. Çoxsaylı sualları cavablandırdı. Sütçü İmam Universitetinin rektoru professor Niyazi Can maraqlı tədbir üçün təşəkkürünü bildirdi və hədiyyəsini şairə təqdim etdi. Görüşdən sonra Hamlet İsaxanlının "Hazana övgü" kitabının imza günü keçirildi. Oxucuların xahişi ilə xatirə şəkilləri çəkildi.

Türkiyənin Kayseri, Niğde, Nevşehir, Kapadokya və Kahramanmaraş şəhərlərindəki görüşlər çox möhtəşəm sonluqla başa çatdı.

Further on, Hamlet Isakhanli delivered a speech and cordially greeted the audience on behalf of Azerbaijan and Khazar University and recited his poems. He answered numerous questions. Rector of the Kahramanmaraş Sütçü Imam University, Professor Niyazi Can thanked for the exciting evening and presented his prize to the poet. After the meeting, book signing session of Hamlet Isakhanli's book "Praise to Autumn" was held. With the readers' request, memorable pictures were taken.

Meetings in Turkey's cities, Kayseri, Niğde, Nevshehir, Cappadocia and Kahramanmarash were concluded with a very grand end.






**Professor Hamlet İsaxanlının Türkiyəyə işgüzar səfərini Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC və digər ölkə mediası geniş işıqlandırmışdır.**

**Professor Hamlet Isakhanli's business trip to Turkey was widely covered by the Azerbaijani State Information Agency - AZERTAC and other country's media:**

***https://azertag.az/xeber/Hamlet_Isaxanli_turkiyeli_oxucularla_gorusub-1258356;https://azertag.az/xeber/1256766;https://azertag.az/xeber/1257105;https://azertag.az/xeber/1256766;*****https://azertag.az/xeber/1257109;*****http://www.moderator.az/news/262610.html;http://www.moderator.az/news/262778.html;http://www.moderator.az/news/262914.html*** **and etc.**





# Biz gəldi-gedərik, sən yaşa, "DÜNYA"!

**İsaxan İsaxanlı**

*"Dünya" məktəbinin 20 illik yubiley mərasimində çıxış*

Düz 20 il bundan əvvəl, 1998-ci ildə Xəzər Universitetinin Neftçilər binasında 2-ci mərtəbədə bir sinif ayrıldı, bir müəllim dəvət edildi və bir neçə kiçikyaşlı şagirdlə, bu gün yubileyini qeyd etdiyimiz "Dünya" məktəbi fəaliyyətə başladı. O zaman məktəbin adı "Dünya" deyildi, sadəcə olaraq, "Xəzər Universiteti nəzdində orta məktəb" adlanırdı.

Bir müddət sonra, məktəbin ayrıca hüquqi şəxs kimi qeydiyyatdan keçməsi üçün nizamnaməsi hazırlanarkən ona daha konkret ad qoymalı olduq. Zamanımız az idi və təcili olaraq nizamnaməni Təhsil Nazirliyinə göndərməli idik. Bəzi adlar təklif edildi və birdən Hamlet müəllim "çox düşünməyə vaxtımız yoxdur, bir ad yazıb göndərin, məsələn "Dünya" - dedi. Elə həmin gündən məktəbin adı "Dünya" olaraq qaldı. İndi 20 illik bir məsafəyə geri boylandıqda Hamlet müəllimin nə qədər uzaqgörənliklə bir ad seçdiyinin şahidi oluruq. Bu 20 il ərzində o balaca "Dünya" yavaş-yavaş böyüdü, böyük dünyaya açıldı, indi səsi bütün dünyadan gəlir "Dünya" məktəbinin.

Bəs görəsən bizim "Dünya"mızın yalnız adımı dünyadır, yoxsa onun məzmununda, canında, ruhunda da böyük dünyamızla qovuşan məqamlar varmı? Bunun üçün bizim balaca "Dünya"mızla böyük dünyamız arasında, "Dünya" məktəbinin şux, oynaq ruhuna uyğun olaraq, kiçik poetik müqayisələr, paralellər aparmaq qərarına gəldim.

Dünya mövzusu ədəbiyyatda, xüsusən də poeziyada mərkəzi yer tutan mövzulardandır. Dünya haqqında çoxlu şeirlər yazılmış, dünyanın gözəlliyindən, qəribəliyindən, sirli-soraqlı olmasından, faniliyindən, əbədi və beşgünlük olması və s. məsələlərlə bağlı gözəl poetik tablolar yaradılmışdır. Dünya haqqında düşündükdə, əlbəttə ki, adamın yadına düşən ilk şeir böyük şairimiz Səməd Vurğunun "Dünya"sı olur.

*Ulduzlar havanın bağrını dəlir,*
*Qayalı dağlardan duman yüksəlir,*
*Xəyalım gecəni salama gəlir,*
*Çapdırır atını birbaşa dünya.*

Nədir bu bənddə bizim "Dünya"mızla uzlaşan məqam?

"Dünya" məktəbi keçdiyi bu 20 illik müddətdə nəinki Azərbaycan təhsil məkanında öz sözünü deyə bildi, öz dəstxətini yarada bildi, müəyyən hörmət və nüfuz qazana bildi, üstəlik, orta təhsil sahəsində dünyada geniş nüfuz qazanmış beynəlxalq İB proqramının Azərbaycanda tətbiq edilməsində əvəzsiz rol oynadı, Azərbaycanın tanınmış təhsil mərkəzi olmaqla yanaşı, həm də söz və sənət adamlarının, mədəniyyət və incəsənət xadimlərinin səve-səve gəldiyi bir mədəniyyət mərkəzinə çevrildi, orta məktəblər arasında yeganə özəl məktəb olaraq Azərbaycan Respublikası Prezidentinin xüsusi mükafatına layiq görüldü (2012-2013-cü tədris ili) və ümumilikdə, Azərbaycanın ən yaxşı orta təhsil məktəblərindən biri olmağı bacardı, özü də adı kimi bir dünya oldu.

Odur ki, cəsarətlə deyə bilərik ki, "Çapdırır atını birbaşa "Dünya"!

*Bir də görürsən ki, açılan solur,*
*Düşünən bir beyin, bir torpaq olur,*
*Bir yandan boşalır, bir yandan dolur,*
*Sirrini verməyir sirdaşa dünya.*

Doğrudan da, bizim böyük dünyamızda olduğu kimi, "Dünya" məktəbi də "Bir yandan boşalır, bir yandan dolur". "Dünya" məktəbinə dünyanın müxtəlif ölkələrindən müəllimlər dəvət olunur, işləməyə başlayırlar, lakin bir müddət sonra Dövlət Miqrasiya Xidməti onlardan bəzilərinə yeni iş icazəsi vermir (maraqlıdır!), onlar öz ölkələrinə qayıtmalı olurlar və boşalan yerləri müxtəlif məktəblərdən gələn başqa müəllimlərlə doldururuq. 11-ci sinif şagirdlərimiz məzun olaraq məktəbdən ayrılırlar və onlardan boşalan yerləri məktəbin 1-ci sinfinə və "Dünya ana məktəbi"nə gələn şagirdlər, dərs ili ərzində başqa məktəblərə gedən şagirdlərimizin yerini isə təhsilini davam etdirmək üçün digər məktəblərdən gələn şagirdlər doldurur və beləcə, həyat davam edir "Dünya"da ("Dünya"da tam ahəng var!).

O ki qaldı "Sirrini verməyir sirdaşa dünya" məsələsinə, burada bizim "Dünya"mız dünyadan nəinki geri qalmır, üstəlik, bir az da irəli getmişdir. Fikrim quru söz olaraq qalmasın deyə bir hadisəni yada salmaq istəyirəm. Təxminən 2 il bundan əvvəl biz yeni işçilərin necə işə götürülməsi (xidməti müqavilələr, əmək müqavilələri), maaş və vergi məsələlərinin düzgün tənzimlənməsi məqsədilə Xəzər Universitetində bir siyasət formalaşdırmışdıq. Nailə xanım həmin siyasətin "Dünya" məktəbində də tətbiq olunması üçün, məktəbin baş mühasibi Solmaz xanımla bir müzakirə aparmağımı istədi. Solmaz xanım gəldi, oturub söhbət etdik. Mən söhbətimizin daha canlı və konkret olması məqsədilə "Solmaz xanım, bu məsələləri daha canlı şəkildə anlamaq üçün gəlin müzakirəmizi konkret rəqəmlər üzərində quraq. Məsələn, Mərufə xanım nə qədər maaş alır?" deyə sordum.

- İsaxan müəllim, vallah mən onu deyə bilmərəm.

- Bilmirsinizsə, onda zəng edib Rita xanımdan soruşun.

- Yox, İsaxan müəllim, mən Mərufə xanımın nə qədər maaş aldığını bilirəm, sadəcə olaraq, sizə deyə bilmərəm.

Mən bir anlığa düşündüm ki, yəqin Mərufə xanım direktor olduğu üçün bir az yüksək maaş alır və Solmaz xanım bu rəqəmi demək istəmir.

- Yaxşı, Mərufə xanımın maaşını deyə bilmirsən, onda Çiçək xanımın maaşı nə qədərdir? Sən özün nə qədər maaş alırsan?

- İsaxan müəllim, mən heç nə deyə bilmərəm.

Doğrusu, bu məqamda öz-özümə "mən bunlara kömək etmək istəyirəm, bunlar da məndən sirr saxlayırlar" deyə, bir qədər hirsləndim. Amma özümü ələ aldım. Başa düşdüm ki, Solmaz xanımın üstünə ilan da salsam ondan konkret rəqəm ala bilməyəcəm. Doğrusu, kiminsə maaşının konkret nə qədər olduğunu öyrənmək heç məqsədim də deyildi. Sadəcə olaraq, sözgəlişi ortaya çıxmışdı bu sual. Beləliklə də, o vaxt söhbətimizi saxta rəqəmlər üzərində başa vurmalı olduq. İnanın səmimiyyətimə ki, mən hələ bu gün də bilmirəm ki, Mərufə xanım nə qədər maaş alır.

Paralellərimizi Hamlet İsaxanlının "Dünya" şeiri ilə davam etdirək:

*Ümid zəif olsa belə, könüllərə şəfəq saçar,*
*Xoş əməllər bar gətirər, xoş niyyətlər çiçək açar.*
*İnsanlara qanad verən sevgi adlı möcüzə var,*
*Nəhayətsiz eşq, ehtiras, duyğu çələngidi dünya.*

Düz 20 il bundan əvvəl, bir-birini "gündən-günə daha dolğun, daha incə" hisslərlə, "yerə həsrət yağış kimi, leysan kimi" sevən iki qəlbdə bir xoş niyyət çiçək açdı, bu xoş niyyət xoş əmələ çevrildi – "Dünya" məktəbi yarandı, öz barını verdi, neçə-neçə məzunları dünyanın müxtəlif ölkələrinə səpələndi "Dünya" məktəbinin və bu gün də onlar bu balaca "Dünya"nın şöhrətini böyük dünyaya daşımaqda və onu fəxrlə və ləyaqətlə təmsil etməkdə davam edirlər. Və bütün bunlar "İnsanlara qanad verən sevgi adlı möcüzə"nin gücü ilə baş verdi, çünki sevgidir hər şeyin canı, qanı, sevgidir hər uğurun açarı! "Dünya" məktəbində olan insanlar öz işini sevməsəydi, hər şeyə sevgi ilə yanaşmasaydı, eşq, ehtiras, duyğu bu yolda onlara hakim kəsilməsəydi, heç şübhəsiz, indiyə qədər əldə edilənlərin böyük bir qismi əldə edilə bilməzdi. İşinə vurğunluq, sevgi, eşq, ehtiras, enerji olan yerdə uğur, nailiyyət qaçılmazdır.

*Dünyanı eşq yaşadar,*
*Vurğunluqdan xoş nə var?!*
*Kim deyər ki, sevdalar*
*Gəldi-gedərdi, gülüm?!*

Və:

*Günəş aya baxmasa*
*Ay yerə nur saçarmı?*
*Qoşa qanad taxmasa*
*Quşlar şövqlə uçarmı?* (H.İ)

Əlbəttə ki, uça bilməz. Quşların uçması, hələ üstəlik, şövqlə uçması üçün onların bir yox, iki qanada ehtiyacı var. "Dünya" məktəbi də, bir quş kimi, daha doğrusu, bir qartal kimi, iki qanadın – Hamlet və Nailə xanım adlı iki qanadın şövqü ilə havalandı, pərvazlandı, baş vurdu əvvəlcə Azərbaycanın təhsil səmalarına və ordan da üz tutdu dünya səmalarına! Bəli, iki qəlbin birgə döyüntüsünün məhsuludur "Dünya" məktəbi! Burada, istər-istəməz H.İsaxanlının "İkimizdən birimiz" adlı şeirindən bir bənd yada düşür:

*Bir söz deyim müxtəsər,*
*Məhəbbətdir hər əsər.*
*Bir vurmazdı qəlbimiz.*
*Yazılmazdı şeirimiz*
*(Yaranmazdı "Dünya"mız! - İ.İ)*
*İkimizdən birimiz*
*Dünyaya gəlməsəydik.*

Əziz dostlar, "Dünya" məktəbinin kollektivi – idarəçilər, müəllimlər, şagirdlər, övladlarının həyatını "Dünya" məktəbi ilə bağlayan valideynlər, balaca "Dünya"nın şöhrətini böyük dünyaya yayan məzunlar, "Dünya" məktəbinin bütün dostları, bir sozlə, öz dünyasını, müəyyən mənada, burda – "Dünya" məktəbində quran, tapan insanlar! "Dünya" məktəbini tanıyan, bilən heç kəsin şübhəsi yoxdur ki, bu günə qədər qazanılanlardan qat-qat çox olacaq bundan sonra əldə olunacaq nailiyyətlər, hələ çox uğurlara imza atacaq "Dünya" məktəbi. Və sizlərin səyi, zəhməti, enerjisi, sevgisi və inamı sayəsində baş tutacaq bütün bunlar. Sizə uğur olsun çıxdığınız bu xeyirxah, çətin, keşməkeşli yolda, məsuliyyətli olduğu qədər də şərəfli yolda! Arzu edirəm ki, qol-budaq atıb böyüsün bu cavan "Dünya"mız, yaşlansın, qocalsın və böyük dünyamız kimi, söz-sənət adamlarımızın əbədi mövzusuna çevrilsin "Dünya" məktəbi, "bu dünya durduqca, o da var olsun!".

## "DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin nəşri olan "Dünya" jurnalının məktəbin 20 illiyinə həsr olunmuş xüsusi buraxılışı (28-ci nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.




## A NEW ISSUE OF "DUNYA" JOURNAL HAS BEEN PUBLISHED

Being dedicated to the 20th anniversary of the School, the special edition (number 28) of "Dunya" journal, a monthly journal of Dunya School affiliated with Khazar University, was published by Khazar University Press.




# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNDƏ MAGİSTR MÜDAFİƏSİ

# MASTER'S THESIS DEFENSE IN THE DEPARTMENT OF LANGUAGES AND LITERATURE

Martın 15-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Dillər və ədəbiyyatlar departamentinin magistrantı Sona Mustafayevanın "Mövlud Süleymanlı yaradıcılığında retrospeksiya" mövzusunda yazdığı magistr dissertasiyasının müdafiəsi keçirildi. Müdafiədə fil.ü.f.d. Reyhan Mədətova (sədr), dos. Vurğun Əyyub, dos. Dilbər Zeynalova (elmi rəhbər), dos. Xatirə Yusifova, fil.ü.f.d. Aynur Qəzənfərqızı, PhD (namizəd) Cabir Məmmədli, Kamilə Bədəlova (katib) iştirak etdilər.

Dos. Vurğun Əyyub, dos. Xatirə Yusifova, fil.ü f.d. Aynur Qəzənfərqızı, fil.ü.f.d. Reyhan Mədətova, PhD (namizəd) Cabir Məmmədli dissertasiya işi haqqında müsbət rəy söyləyərək, Sona Mustafayevanın magistr dərəcəsi almağa layiq olduğunu bildirdilər. Sonda səsvermənin nəticəsinə əsasən elmi iş 95 balla qiymətləndirildi və magistranta magistr dərəcəsi verilməsi qərara alındı.

On March 15, Master's thesis Defense of Sona Shahin gizi Mustafayeva, graduate student at the Department of Languages and Literature of the School of Humanities, Education and Social Sciences of Khazar University, on "Retrospection in the work of Movlud Suleymanli" took place. Thesis defense was attended by Reyhan Madatova, PhD in Philology (Director), Associate Professor Vurgun Eyyub, Associate Professor Dilbar Zeynalova (scientific supervisor), Associate Professor Khatira Yusifova, Aynur Gazanfargizi, PhD in Philology, Jabir Mammadli, PhD (Candidate), Kamila Badalova (secretary).

Associate Professor Vurgun Eyyub, Associate Professor Khatira Yusifova, Aynur Gazanfargizi, PhD in Philology, Reyhan Madatova, PhD in Philology, Jabir Mammadli, PhD (Candidate), expressed their positive views and approved that Sona Shahin Mustafayeva merited to receive Master's degree. Following that, thesis work was accepted and evaluated with (95) grade, according to the voting results, and it was decided to award master's degree to the





# DİREKTORLAR VƏ QƏYYUMLAR ŞURASININ İLLİK TOPLANTISI

# ANNUAL MEETING OF THE BOARD OF DIRECTORS AND TRUSTEES

Martın 18-də Xəzər Universitetində Direktorlar və Qəyyumlar Şurasının illik toplantısı keçirildi. Toplantıda İdarə Heyətinin üzvləri, iş adamları və digər dəvət edilmiş rəsmi şəxslər iştirak edirdilər.

Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı toplantı iştirakçılarını salamlayaraq, Şuranın işi haqqında geniş məlumat verdi. İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı Xəzər Universiteti və ona bağlı olan qurumlar haqqında təqdimatla çıxış etdi.

Tədbirdə iştirakçılara universitetin Kamera orkestrinin konserti təqdim olundu. Solistlər xalq artisti Azər Zeynalov və Xəzər Universitetinin müəllimi, müğənni Məhsəti Cabbarova idi.

Sonra şura üzvləri Xəzər Universitetinin Buzovnada yerləşən Konfrans və İstirahət Mərkəzində oldular. Orada Şura üzvləri üçün ziyafət verildi.

On March 18, the Annual Meeting of the Board of Directors and Trustees was held at Khazar University. The Meeting was attended by the members of the Board, businessmen and other officials.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, welcomed the participants and gave detailed information about the Board. Dr. Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs provided information about Khazar University and its affiliated organizations with presentation slides.

At the event Chamber Orchestra concert of the University was presented to the audience. Soloists at this concert were honored artist Azer Zeynalov and singer Mahsati Jabbarova, Khazar University's teacher.

Then the members of the Board looked around the Buzovna Conference and Leisure Center.

A dinner was given in honor of the Board members.




1991
BAKI













# "XƏZƏR"DƏ NOVRUZ ŞƏNLİYİ

# NOVRUZ CELEBRATION AT KHAZAR UNIVERSITY

Martın 19-da Xəzər Universitetində Novruz bayramı münasibətilə şənlik keçirildi. Tədbirdə universitetin rəhbərliyi, dekanlar və departament müdirləri, əməkdaşlar və tələbələr iştirak edirdilər.

Bayram tonqalı yandırılandan sonra universitetin rektoru vəzifəsini icra edən dosent İradə Xəlilova universitet kollektivini və tələbələri bayram münasibətilə təbrik etdi, onlara işlərində və təhsillərində, şəxsi həyatlarında uğurlar arzuladı.

Tələbələr tonqal ətafında rəqs edib, şənləndilər. Bayram şənliyi universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı ilə müşayiət olundu. Müslüm Maqomayev adına Akademik Filarmoniyanın solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova mahılar ifa etdi. Bayram şənliyi xoş əhval-ruhiyyə ilə başa çatdı.

On March 19, a celebration on the occasion of Novruz was held at Khazar University. The event was attended by the University Administration, deans and department heads, employees and students.

After inflaming the *tongal* (bonfire), Irada Khalilova, the Acting Rector of the University congratulated the University staff and students on the occasion of the holiday and wished them success in their work, education, and also in their personal lives.

The students joyfully danced around the *tongal*. The festival was accompanied by a concert program prepared by the Department of Music and Fine Arts of the University. The soloist of the Academic Philharmonia named after Muslim Magomayev, and teacher of Khazar University, Mahsati Jabbarova, performed the singing. Holiday festivity was a great success and granted everyone a good festive mood.













EUROMONITOR INTERNATIONAL

# TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

**"EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017 - Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB**

**Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib. İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon). İlk onluğa həmçinin Sinqapur, Makao, Dubay, Nyu-York, Şençjen və Kuala-Lumpur daxil edilib.**

*(Əvvəli jurnalın ötən saylarında)*

# MALAYZİYA

# KUALA-LUMPUR















# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.*

## ÇEX RESPUBLİKASI

### PRAQA

Monastır nəzdində yaradılmış Straqov kitabxanası günümüzədək qorunub saxlanılmış tarixi kitabxanaların ən nadiri və dəyərlisidir. Kitabxananın kolleksiyasında iki yüz mindən çox kitab var. Kitabxananın qədim hissəsi – Teologiya zalı 1671-74-cü illərdə barokko üslubunda inşa edilmişdir. 1794-cü ildə yaradılmış Fəlsəfə zalı klassisizm dövrünün memarlığını əks etdirir. Zallara xüsusi yaraşıq verən S. Nosetski və F. A. Maulberçin tavanları bəzəyən freskalarıdır.

## STRAQOV KİTABXANASI



www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ BAKALAVR TƏŞKİLATI



# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarıq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.

DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF EDƏCƏKSİNİZ.

Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn